AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 52 (1397), 11 - 17 dekabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyasının prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Arkadi Dvorkoviçi Beynəlxalq Şahmat Federasiyasının prezidenti kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Arkadi Dvorkoviçin bu vəzifəyə seçilməsindən sonra qısa bir zaman ərzində Azərbaycana səfərinin önəmini qeyd edərək, bunu ölkəmizin şahmat ənənələrinə diqqət və hörmət əlaməti kimi dəyərləndirdi. Dövlətimizin başçısı Arkadi Dvorkoviçin səfəri zamanı Azərbaycanla FİDE arasında əməkdaşlığın perspektivləri, ölkəmizin dünya şahmat ailəsində fəal iştirakı və qarşılıqlı fəaliyyəti ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu dedi. O, ölkəmizin FİDE-yə verdiyi dəstəyi yüksək qiymətləndirərək, bunun təşkilatın fəaliyyətində daim hiss olunduğunu vurğuladı. Arkadi Dvorkoviç, eyni zamanda, Azərbaycan nümayəndəsinin FİDE-nin vitse-prezidenti vəzifəsinə seçilməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə Azərbaycanda idmana, o cümlədən şahmata dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi vurğulandı.

Söhbət zamanı Arkadi Dvorkoviç "Skolkovo" Fondunun sədri kimi rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığa önəm verdiyini, artıq telekommunikasiya sahəsində birgə işlərin aparıldığını dedi və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

## Akademiyada gender mövzusunda tədbir təşkil olunub

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində Krav-maqa özünümüdafiə üzrə təlim proqramının açılışı ilə bağlı tədbir keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, AzDBTİA-nın rektoru Fuad Hacıyev, İsrail səfirliyinin missiya rəhbərinin müavini xanım Avital Rosenberq, YUNİCEF-in Azərbaycandakı nümayəndəliyinin müavini xanım Min Yuan, Beynəlxalq Krav-maqa Federasiyasının baş məşqçisi Lilach Sheeff və akademiyanın professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov Krav-maqa proqramının əhəmiyyətini vurğulayaraq bu proqramın Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyi tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı: "Gənclər və İdman Nazirliyi idmanı geniş kütlələr üçün sağlam həyatın, özünəinamın tərkib hissəsi kimi qəbul edir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası geniş şəkildə dəstəklənir.

*(ardı 2-ci səhifədə)*

## Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo turniri keçirilib

Dekabrın 8-9-da "Judo Club 2012"nin yarış zalında ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş yeniyetmələr arasında cüdo üzrə birincilik keçirilib. Yarışdan əvvəl ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Turnirin açılış mərasimində çıxış edən klubun icraçı direktoru Hafis Hacıyev idmançıları salamlayaraq ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edib. O bildirib ki, ulu öndərimiz Azərbaycanın inkişaf strategiyasının müəllifidir.

*(ardı 4-cü səhifədə)*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

Qadın idmanı fiziki və mənəvi tərbiyədə özünəməxsus uğurları ilə seçilir Səh. 5

## Anons

*FİG yeni idman növünü nizamnaməyə daxil edib* Səh. 2

Millimiz "Ehramlar ölkəsində" yarışır Səh.2

Dopinqlə mübarizə mövzusunda növbəti tədbir Səh. 3

*Pəhləvanlarımız ölkə çempionatında mübarizə aparacaqlar* Səh. 3

*"Təmiz qələbə qazanan idmançının uğuruna heç bir hakim kölgə sala bilməz"* Səh. 4

Dünya çempionatından bürünc medal Səh. 4

## Olimpizm

### BOK İdmançılar Komissiyasının böyük beynəlxalq forumu təşkil olunacaq

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İdmançılar Komissiyası tarixdə ən böyük tərkibdə toplaşmaq niyyətindədir. Bu tədbir 2019-cu il aprelin 13-dən 15-dək Lozannada idmançıların beynəlxalq forumunda təşkil olunacaq.

Bu beynəlxalq foruma ilk dəfə olaraq 206 milli Olimpiya Komitəsini təmsil edən atletlər dəvət olunacaq və iştirakçıların sayı 350 nəfərə çatacaq. Beləliklə, qarşıda ən böyük forum gözlənilir. Dəvət edilənlərin siyahısında yay və qış Olimpiya idman növləri üzrə bütün beynəlxalq federasiyaların idmançılar komissiyalarının, Milli Olimpiya Komitələri Assosiasiyasının, milli Olimpiya komitələrinin qitə assosiasiyalarının, Olimpiya Oyunlarının Təşkilat Komitələrinin, Ümumdünya Antidopinq Agentliyinin, Beynəlxalq Paralimpiya Komitəsinin və Ümumdünya Olimpiyaçılar Assosiasiyasının nümayəndələri var.

BOK İdmançılar Komissiyasının strategiyası atletlərin direktiv orqanlarda daha çox təmsil olunması, Olimpiya Hərəkatının ən yüksək səviyyədə bütün əlaqədar qurumlar tərəfindən idmançıların fikrinin eşidilməsi, həmçinin idmançılar komissiyalarının imkanlarının genişləndirilməsi səylərinə əsaslanır.

### "İdman dayanıqlı inkişafın təmin olunmasında mühüm amildir"

Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu-Yorkda keçirilən Baş Assambleyasında "İdman dayanıqlı inkişafın təmin olunması amillərindən biri kimi" adlı qətnamə qəbul edilib. BMT Baş Assambleyası bu qətnamə ilə bütün üzv dövlətləri idmanı, o cümlədən Olimpiya Hərəkatını inkişaf etdirməyə çağırır.

BMT baş katibinin idman və inkişafla bağlı məruzəsində bildirilir ki, üzv ölkələrdə idmanın inkişafı sahəsində dövlət proqramları həyata keçirilməli, Olimpiya Komitəsinin və idman təşkilatlarının fəaliyyəti dəstəklənməlidir. Vurğulanır ki, idman 2030-cu ilədək dayanıqlı inkişaf məqsədlərində ən mühüm amillərdən biri kimi göstərilib.

Baş Assambleyanın qətnaməsində Olimpiya və paralimpiya hərəkatlarının idmanın inkişafına, həmçinin dünyada sülhün və sabitliyin bərqərar olmasına verdiyi əvəzsiz töhfə qeyd olunur. Sənədin müəllifləri hesab edirlər ki, idman insanlarda dözümlülük və qarşılıqlı hörmət kimi keyfiyyətlərin formalaşması, habelə əhalinin müxtəlif təbəqələrinin, o cümlədən qadın və gənclərin hüquqlarının daha da genişlənməsi baxımından böyük əhəmiyyət kəsb edir. O, həmçinin səhiyyə, təhsil və sosial inteqrasiya sahələrində inkişafa da kömək edir.

**ƏZİZ OXUCULAR!**

Olimpiya dünyası-na 2019-cu il üçün abunə yazılışı başlayıb.

OLİMPİYA DÜNYASI

Abunə yazılışının

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

*Abunə yazılmaq üçün*

- *"Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)*
- *"Qaya" (tel: 565 67 13)*
- *"Səma" (tel: 596 22 97)*
- *"City Press" (tel: 437 28 10)*
- *"Kaspi" (tel: 432 39 55)*

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

"Olimpiya dünyası" - idmanımızın aynası

## FİG yeni idman növünü nizamnaməyə daxil edib

Beynəlxalq Gimnastika Federasiyası (FİG) parkuru gimnastika növlərindən biri kimi təşkilatın nizamnaməsinə daxil edib. Bu barədə FİG-in mətbuat xidmətinin yaydığı məlumatda bildirilir.

Həmin qərar FİG-in dekabrın 2-dən 3-dək Bakıda keçirilən 82-ci Konqresində qəbul edilib.

FİG 2017-ci ildə test rejimində parkur üzrə dünya kubokunun iki mərhələsini keçirib. Yarışlar Fransanın Monpelye və Çinin Çendu şəhərlərində təşkil olunub. Parkur növü üzrə ilk rəsmi dünya çempionatının 2020-ci ilin may-iyun aylarında keçirilməsi planlaşdırılır.

* * *

Dekabrın 6-9-da Milli Gimnastika Arenası bədii gimnastika üzrə 25-ci Azərbaycan birinciliyi və 5-ci bölgələrarası kubok yarışlarına ev sahibliyi edib.

Yarışların ilk üç günündə fərdi gimnastlar balacalar, yeniyetmələr, gənclər, qrup hərəkətləri komandaları isə balacalar və yeniyetmələr yaş kateqoriyalarında qüvvələrini sınayıblar. Medallar uğrunda yarışlarda "Ocaq Sport" İdman Klubu, Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi (RKİM), "AyUlduz" klubu, "Zirvə" İdman Klubu, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Bakı Su İdmanı Sarayı, "Zabrat" İdman Klubunun təmsilçiləri, eləcə də, Sumqayıt şəhərinin, Qusar, Gəncə, Mingəçevir, İsmayıllı, Kürdəmir, Şirvan və Göyçay rayonlarının yetirmələri mübarizə apardılar.

Yeniyetmələr (2006-2007) arasında qrup hərəkətləri üzrə lentlərdə yarışda qaliblərin adlarına yarışların ilk günündə aydınlıq gəldi. Bütün rəqiblərini üstələyən "Ocaq 2" komandası birinci yerin sahibi oldu. 2-ci yeri Bakı Gimnastika Məktəbinin təmsilçiləri tutdular. Bürünc mükafatı isə boynundan "Ocaq 1" kollektivi asdı.

Dekabrın 7-də isə bədii gimnastlar gənclər (2003-2005) və yeniyetmələr (2006-2007) yaş kateqoriyasında halqa, top, gürzlər və lentlərdə mübarizə apardılar. Günün sonunda 2003-2005-ci il təvəllüdlü bədii gimnastların çoxnövçülük yarışlarında mükafatalayiq yerlərə "Ocaq Sport" İdman Klubunun təmsilçiləri layiq görüldülər. Fatimə Əkbərova həmin yaş kateqoriyasında ən güclü gimnast kimi Azərbaycan çempionu titu-



lunu aldı. Gümüş və bürünc medallara isə Məryəm Səfərova və İlona Zeynalova layiq görüldülər.

Yarışların üçüncü günündə 2008-2010-cu il təvəllüdlü gimnastlar alətsiz, halqa və iplə, 2006-2007-ci il təvəllüdlü gimnastlar halqa, top, gürz və lentlərlə fərdi proqramda, eləcə də, 2008-2010-cu il təvəllüdlü gimnastlar halqalarda qrup hərəkətləri üzrə proqramda yarışdılar. Çoxnövçülük üzrə fərdi çıxışların yekunlarına əsasən, 2008, 2009 və 2010-cu il təvəllüdlü gimnastlar arasında qaliblər müəyyənləşdi. Beləliklə, fəxri kürsünün ən yüksək pilləsində "Ocaq Sport" İK-nun təmsilçiləri Nərminə Bayramova, Gövhər İbrahimova ("Ocaq Sport") və İlahə Bahadırova qərar tutdular. Həmin yaş kateqoriyasında qrup hərəkətlərində hamıdan güclü olmağı BGM 1 kollektivi bacardı. Yeniyetmələr yaş kateqoriyasında isə birinciliyi Kamilla Seyidzadə ("Ocaq Sport") qazandı.

Turnirin sonuncu günündə bölgələrarası kubok yarışları keçirildi. Sayca beşinci olan bu yarışda ölkəmizin müxtəlif bölgələrini təmsil edən gimnastlar həm fərdi, həm də qrup hərəkətləri proqramında bacarıqlarını nümayiş etdirdilər. 2008-2010 təvəllüdlü gimnastlar arasında çoxnövçülükdə Aişə Rəcəbli (Sumqayıt), Yasəmən Nəsirova (Mingəçevir) birinci yeri, Dəniz Əsgərova ("Zirvə" İdman Klubu) və Sevil Hüseynli ("Zirvə" İdman Klubu) birinci yerə layiq görüldülər. 2006-2007-ci il təvəllüdlü gimnastlar arasında çoxnövçülükdə isə qalib adını Cənnət Bayramlı (Sumqayıt), Nənəbacı Şəfiyeva (Qusar rayonu) qazandılar.

Komandalar yarışlarında halqa ilə qrup hərəkətlərində 2008-2010-cu il təvəllüdlü gimnastlar arasında birinci yeri "Zirvə" İdman Klubu tutdu.

## *Gender əsaslı zorakılığa qarşı veloyürüş layihəsi başa çatıb*

Azərbaycanda "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində müxtəlif tədbirlər keçirilir. Onladan biri də BMT-nin Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə yeniyetmə və gənclər arasında velosiped idmanına marağı artırmaq və bu idman növündə gender bərabərliyini təmin etmək məqsədi ilə regionlarda "Sağlam həyata doğru: velosiped idmanında gender bərabərliyi" mövzusunda təlim-seminar və veloyürüşlərin təşkil edilməsidir.

Biləsuvarda təşkil olunan sonuncu layihə çərçivəsində qadınların bu idman növünə cəlb edilməsi, velosiped idmanının gender əsaslı zorakılığa qarşı mübarizədə qızların və qadınların maarifləndirilməsi baxımından əhəmiyyətindən, bu idman növünün qadın reproduktiv sağlamlığında rolu və ondan düzgün istifadə qaydalarından bəhs edilib.

Seminar zamanı gənc qızlara əyani olaraq velosiped üzərində praktiki təlimlər keçirilərək müzakirələr aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Yeniyetmə və gənclərə bu idman növündən və qadın hüquqlarından bəhs edən kitablar və müxtəlif çap materialları paylanılıb. Daha sonra seminar və təlimlərdə iştirak etmiş qızların iştirakı ilə Biləsuvarda veloyürüş keçirilib.

Qeyd edək ki, Azərbaycan Velosiped İdmanı Federasiyası, "Gənc Velosipedçilər" İctimai Birliyi və Respublika Olimpiya Velosiped Məktəbinin təşkilatçılığı ilə keçirilən layihə çərçivəsində Mingəçevir, Qusar və Lənkəranda da analoji tədbirlər təşkil olunub.

## Akademiyada gender mövzusunda tədbir təşkil olunub

*(əvvəli 1-ci səhifədə)*



Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında böyük rolu və iştirakı olmuş qadınların sayı kişilərin sayından heç də az deyildir. Müstəqilliyimizin 100-cü il dönümündə biz əminliklə deyə bilərik ki, dövlət əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün münbit şərait yaratmışdır. Müasir dünyada idman insanların, o cümlədən qadınların məşğulluğu üçün yeni imkanlar, yeni peşələr yaradır. Bunlar idman pedaqogikası, təşkilatçısı, inşaatı, jurnalisti, tibbi peşələri, tədqiqatçısı və s. peşələrdir. İdmanla bağlı bir sıra tətbiqi sahələr əmələ gəlir. Krav-maqa məhz elə bu fikri təsdiqləyir-idman təkcə peşə və asudə vaxtının təşkili deyil, sağlamlıq və insan hüquqlarının qorunması alətidir", - deyə nazir bildirdi.

Hazırda ölkəmizdə idman sahəsinin yüksək sürətlə inkişaf etdiyini və bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayının 1.785.900 nəfər olduğunu diqqətə çatdıran Azad Rəhimov idmanı insanlar arasında sülhün və dostluğun tərənnümçüsü kimi dəyərləndirdi. Nazir qeyd etdi ki, insanlar zorakılığa məruz qalanda idman həmçinin müdafiə vasitəsinə də çevrilə bilər. "Təəssüflə qeyd etməliyəm ki, qadınlar və, xüsusən gənc qadınlar, daha çox zorakılıq obyektinə çevrilirlər. Əfsuslar olsun ki, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz qızlar və qadınlara qarşı zorakılığın sayını və şiddətini artırır. Buna görə də qadınların özünü müdafiə məsələsi xüsusi əhəmiyyət kəsb edir.

İnanıram ki, bu təlimlər qadınlar arasında özünümüdafiə sistemini gücləndirəcək və nəticədə zorakılığın qarşısının alınmasına töhfə verəcək", - deyən Azad Rəhimov çıxışının sonunda proqram müəlliflərinə də təşəkkürünü bildirdi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirdi ki, ölkəmizdə güclü hüquqi qanunvericilik bazası əsasında qadınlar üçün bərabər imkanların yaradılması və sosial həyatın bütün sahələrində onların fəal iştirakı üçün mühüm işlər görülür. "Elm və incəsənət sahəsində olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də, Azərbaycan qadınları çətin və mürəkkəb bir yol keçiblər. Vaxtı ilə azərbaycanlı qadınların səhnəyə çıxmasına və yaxud idmanla məşğul olmaslarına qadağalar qoyulub. Müstəqillik illərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti sayəsində ölkəmizdə qadın və uşaq hüquqlarının qorunması istiqamətində mühüm işlər görülüb. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qadınların hüquqlarının qorunmasına xidmət edir. Bu qanunun qəbul olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolu və fəaliyyəti xüsusi qeyd edilməlidir", - deyə Hicran Hüseynova çıxışını yekunlaşdırdı.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev akademiyanın qarşısında qoyulan əsas vəzifələrdən biri kimi məhz təhsilin keyfiyyətinin qaldırmasını, layiqli vətəndaşların yetişdirilməsi və öz sahələrində rəqabət qabiliyyətli mütəxəssislərin formalaşdırılmasını ön plana çəkdi. Rektor idman mütəxəssisləri hazırlayan ali təhsil ocağında ardıcıl olaraq islahatların aparıldığını qeyd edərək tədrisi ingilis dilində aparılan 3 yeni- "İdman tibbi və reabilitasiya", "İdman menecmenti" və "İdman jurnalistikası" magistr proqramlarının həyata keçirildiyini dedi.

Ölkəmizdə qadınlara hər zaman böyük hörmət edildiyini, şərqdə ilk dəfə yalnız Azərbaycanda qadınlara seçki hüququ verildiyini diqqətə çatdıran Fuad Hacıyev hazırda akademiyada təhsil alan 787 Olimpiya, dünya və Avropa çempionu və mükafatçısından 139 nəfərinin gənc qızlar olduğundan söhbət açdı.

İsrail Səfirliyinin missiya rəhbərinin müavini xanım Avital Rosenberq çıxışında qadınlara qarşı zorakılığın aradan qaldırılması istiqamətində aparılan bu kampaniyanın davamlı olacağına əminliyini ifadə etdi: Qadınlara qarşı zorakılıq dünyanın istənilən ölkəsində baş verir. Qadınlara qarşı bütün zorakılıqlar aradan qaldırılmalıdır".

YUNİCEF-in Azərbaycandakı nümayəndəliyinin müavini xanım Min Yuan qadınlara qarşı zorakılığa son qoymaq üçün dövlət qurumları və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın rolunu vurğuladı.

Tədbirin sonunda Beynəlxalq Krav-maqa Federasiyasının baş məşqçisi Lilach Sheeff akademiyanın gimnastika zalında idmançı qızlara özünümüdafiə təlim seninarı keçdi.



## "Elite Horse & Polo Club" kuboku turnirinə yekun vurulub

Dekabrın 9-da Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzinin qapalı manejində atçılığın konkur növü üzrə "Elite Horse & Polo Club" kubokunun turnirinə yekun vurulub.

İkinci mərhələdə S kateqoriyası üzrə təşkil olunan yarışda hər yaş qrupundan olan idmançılar iştirak edib. Maneələrin hündürlüyü 130-140 sm olan yarışda Sərhədçi Atçılıq Klubunun idmançısı Seyid Musayev "Gilas" ləqəbli atla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Buta Golden" klubunun idmançısı Yahor Merotski ikinci, "Elite Horse & Polo Club"un idmançısı Kənan Novruzov "Cera 59" ləqəbli atla üçüncü yeri tutub.

Beləliklə, iki gün davam edən "Elite Horse & Polo Club" turnirinə yekun vurulub.

Qeyd edək ki, dekabrın 8-də E və M kateqoriya üzrə yarış keçirilmişdi. E kateqoriyası üzrə yarışda 20 yaşınadək yeniyetmə idmançılar hündürlüyü 80 santimetr olan maneələri dəf etmək üçün məharətlərini göstəriblər. Bütün yaş qruplarını əhatə edən M kateqoriyasında isə ən hündür maneə 120 santimetr olub.

E kateqoriyası üzrə yarışda Sərhədçi Atçılıq Klubunun idmançısı Qurbanbəyov "Wasab 1" ləqəbli atla birinci, Dünyamalı Qurbanbəyov "Val Paulo" ləqəbli atla isə ikinci olub. Üçüncü yeri Omar Atçılıq Klubunun idmançısı Nurlan Rüstəmov "Emily Du Barbour" ləqəbli atla qazanıb.

M kateqoriyası üzrə yarışda fəxri kürsün ən yüksək pilləsinə Sərhədçi Atçılıq Klubunun idmançısı Seyid Musayev "Gilas" ləqəbli atla qalxıb. "Cera-59" ləqəbli atla Kənan Novruzov ikinci, "Lorio" ləqəbli atla isə Anar Balahüseynov üçüncü olub.

## *Millimiz "Ehramlar ölkəsində" yarışır*

Dekabrın 9-da Misirin paytaxtı Qahirədə İslam Həmrəyliyi İdman Federasiyasının 5-ci ağırlıqqaldırma çempionatı start götürüb. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda komandamız 3 idmançı ilə təmsil olunur.

Baş məşqçi Asif Məmmədovun rəhbərliyi altında çıxış edən millimizin heyətində Nailxan Nəbiyev, Kamran İsmayılov (hər ikisi - 96 kq) və Əliş Nəzərov (102 kq) yer alıb.

Turnirə dekabrın 14-də yekun vurulacaq.

## Dünya çempionatı Yekaterinburqda keçiriləcək

2019-cu ildə kişilər arasında boks üzrə dünya çempionatı Yekaterinburqda keçiriləcək. Bu barədə məlumatı Rusiya Boks Federasiyasının mətbuat xidməti yayıb. Məlumatda deyilir ki, federasiya bu qərarı Sverdlovsk vilayətinin təklifi əsasında qəbul edib. Yarışlar "Yekaterinburq-EKSPO" Beynəlxalq Sərgi Mərkəzində keçiriləcək.

2017-ci ilin iyulunda Rusiyaya 2019-cu ilin dünya çempionatını təşkil etmək hüququ verilib. Əvvəlcə çempionatı Soçidə keçirmək planlaşdırılıb. Yekaterinburqda təşkil olunacaq boks üzrə dünya çempionatı 2019-cu ilin sentyabrına nəzərdə tutulub.





## *Litva Avropa Cüdo Birliyinin 70-ci konqresinə ev sahibliyi edib*

Litvanın Kaunas şəhərində Avropa Cüdo Birliyinin 70-ci konqresi keçirilib. Konqresdə qitənin 37 ölkəsinin cüdo qurumlarının rəsmiləri iştirak edib. Tədbirdə ölkəmizi Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı təmsil edib. Toplantıda Avropa Cüdo Birliyinin prezidenti Sergey Soloveyçik çıxış edərək bu idman növünün Olimpiya Hərəkatının inkişafındakı rolundan danışıb. Qitə cüdo təşkilatının rəhbəri qarşıdan gələn yeni ildə də idman, təhsil və inzibati məsələlərlə bağlı tədbirlərin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Konqresə dəvət olunan qonaqlar arasında Beynəlxalq Cüdo Federasiyasının baş katibi cənab Jan-Luk Roge də yer alıb.

* * *

Sumqayıt şəhərində Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə hakimlər və məşqçilər üçün seminar keçirilib.

Respublika cüdo ictimaiyyətinin nümayəndələri, məşqçilər, hakimlər və federasiya rəsmilərinin də iştirak etdiyi seminar nəzəri hissədən ibarət olub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kafedra müdiri Nazim Məcidov məruzə ilə çıxış edib.

Tədbirdə cüdonun yeni qayda və qanunlarının tətbiqi əyani şəkildə göstərilib, geniş müzakirə edilib, fikir mübadilələri aparılıb.

* * *

Dekabr 7-9-da Sumqayıt Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə yeniyetmə oğlan və qızlar arasında VII beynəlxalq turnir keçirilib.



Yarışın açılış mərasimində Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının müavini Sahib Quliyev, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Ramin Əlizadə, Cüdo Federasiyasının baş katibi Elmar Babanlı çıxış edib. Rəsmi nümayəndələr ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət və qayğı göstərdiyini, bu sahənin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini bildiriblər. Onlar həmçinin müstəqil Azərbaycanın idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və Olimpiya Hərəkatına qoşulmasının geniş vüsət almasını qeyd ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət himni ilə başlayıb.

Turnirdə yerli idmançılarla yanaşı, Rusiya, Ukrayna, Qazaxıstan və Qırğızıstan komandalarını təmsil edən 660-a yaxın idmançı qalib adı uğrunda mübarizə aparıb.

Yarışı Azərbaycan Cüdo Federasiyası tərəfindən təyin edilmiş hakimlər kollegiyası idarə edib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda müxtəlif çəki dərəcələri üzrə qaliblərin adına aydınlıq gəlib. Qalib və mükafatçılar Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, medal və kubokları ilə təltif olunublar.

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ölkəmizdə fəaliyyət göstərən idman federasiyaları ilə əməkdaşlıq çərçivəsində tədbirlər keçirməkdədir. Belə tədbirlərdən biri "ABU Arena"da təşkil olunub.

## Dopinqlə mübarizə mövzusunda növbəti tədbir

Azərbaycan Həndbol Federasiyasının rəsmiləri, həkimləri və idmançılarının iştirak etdiyi görüş maarifləndirici xarakter daşıyıb.

AMADA təmsilçiləri tərəfindən dopinqlə mübarizə yolları haqqında ətraflı məlumat verilib, həkimlər və həndbolçular qadağan olunmuş preparatlar barədə məlumatlandırılıblar.

Bu cür tədbirlərin əsas məqsədi ölkədə dopinqlə mübarizənin səmərəli şəkildə aparılmasıdır. Yerli idman federasiyaları ilə imzalanan memoranduma əsasən təşkil olunan maarifləndirici görüşlər artıq öz bəhrəsini verməkdədir. Son zamanlar idmançılarımızın dopinq qalmaqallarında adlarının hallanmaması bunu təsdiqləyir.

* * *

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşəbbüsü ilə gənc güləşçilərlə seminar keçirilib. Olimpiya Güləş Mərkəzində təşkil olunan tədbirdə AMADA-nın təhsil və təlim üzrə meneceri Lalə Hacıyeva və Terapevtik istifadə üçün istisna komitəsinin sədr müavini Fərid Əliyev gənc pəhləvanlara dopinqlə bağlı qayda pozuntuları, qadağan olunmuş maddələr və üsullar, yasaq preparatların siyahısı və başqa bu kimi məsələlər haqqında ətraflı məlumat veriblər. Mütəxəssislər dopinq əleyhinə qaydalardakı dəyişiklik və yeniliklərlə də idmançıları tanış ediblər.



## *İlin ən yaxşı atletləri müəyyənləşib*

Balkan Atletik Federasiyaları Assosiasiyası (ABAF) "İlin kişi atleti" mükafatını həmyerlimiz Ramil Quliyevə təqdim edib. Bununla bağlı Türkiyə Atletika Federasiyası məlumat yayıb.

Mükafat Türkiyə bayrağı altında çıxış edən Ramil Quliyevə Yunanıstanın paytaxtı Afinada ABAF sədri Dobromir Karamarinov və köməkçisi Fatih Çintimar tərəfindən təqdim olunub.

Bu il Almaniyanın paytaxtı Berlində keçirilən kişilər arasında 200 metr məsafəyə qaçışda Ramil Quliyev 19.76 saniyə ilə Türkiyə rekordunu yeniləməklə yanaşı, çempionluq rekordunu da qırmışdı.

Uzunluğa tullanma üzrə idmançı Katrin İbarquen 2018-ci ilin ən yaxşı qadın atleti seçilib. Mükafat Beynəlxalq Yüngül Atletika Federasiyasının (IAAF) Monakoda keçirdiyi ənənəvi mərasimdə 34 yaşlı idmançıya təqdim olunub.



Cari ildə İbarquen "Brilyant liqası-nın" üç təkanla tullanma mərhələlərində dörd qələbə qazanıb, həmçinin bu liqanın üç təkanla tullanma və uzunluğa tullanma turnirlərində finalların qalibi olub.

Belçikalı Nafissat Tiam (hündürlüyə tullanma), Böyük Britaniya atleti, Avropa çempionu Dina Eşer-Smit (sprinter qaçışı), keniyalı dünya rekordçusu Beatris Çepkoeç (3000 metr məsafəyə maneələrlə qaçış) və Baham adalarının idmançısı Şona Miller-Uybo (200 və 400 metr məsafələrə qaçış) mükafata namizədlər arasında olublar.

"Yüksələn ulduz" nominasiyasında mükafatın sahibi isə 19 yaşlı amerikalı Sidni Makleflin olub. O, 400 metr məsafəyə maneələrlə qaçış üzrə yeniyetmələr arasında dünya rekordunu təzələyib.

* * *

2023-cü ildə atletika üzrə dünya çempionatına Macarıstanın paytaxtı Budapeşt şəhəri ev sahibliyi edəcək.

Qərar Beynəlxalq Atletika Federasiyası Şurasının iclasında qəbul olunub. Budapeştdə 1998-ci ildə Avropa çempionatı, 2004-cü ildə isə qapalı məkanlarda dünya çempionatı keçirilib.

Qeyd edək ki, gələn il mundial Qətərin paytaxtı Dohada, 2021-ci ildə isə ABŞ-ın Yucin şəhərində təşkil olunacaq.

## Pəhləvanlarımız ölkə çempionatında mübarizə apracaqlar

Dekabrın 18-dən 20-dək Bakı İdman Sarayında böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə ölkə çempionatı keçiriləcək.



Dünya Güləş Birliyinin (UWW) qaydalarına uyğun təşkil olunacaq yarışda 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşəcək.

Turnirin açılış mərasimi dekabrın 19-da keçiriləcək.

Reqlamentə əsasən, ilk yarış günündə yunan-Roma güləşçiləri mübarizə aparacaqlar. Ertəsi gün bu idman növündə medal görüşləri keçiriləcək. Dekabrın 19-da həmçinin sərbəst güləşçilərin mübarizəsinə də start veriləcək. Sərbəst güləşçilərin qızıl və bürünc medal uğrunda qarşılaşmaları isə dekabrın 20-də təşkil olunacaq.

* * *

Şimali Osetiyanın paytaxtı Vladiqafqazda sərbəst güləş üzrə "Alans" turniri keçirilib. Yarışda Azərbaycanı yığmamızın böyük məşqçisi Zəlimxan Hüseynovun rəhbərliyi altında Olimpiya və dünya çempionu Şərif Şərifov və Məhəmmədhacı Xatiyev (hər ikisi 92 kq) təmsil edib. Şərif Şərifov turnirin bürünc medalını qazanaraq, 1000 dollar pul mükafatına sahib çıxıb. Digər təmsilçimiz Məhəmmədhacı Xatiyev isə 1/8 finalda mübarizəni dayandırıb.

## *Dünya çempionatının qalibləri 350 min dollar qazanacaqlar*

Sankt-Peterburqda keçiriləcək rapid və blits üzrə 2018-ci il dünya çempionatının qalibləri hərəyə 350 min dollar məbləğində mükafat qazanacaq. Bu barədə Rusiya Şahmat Federasiyasının mətbuat xidməti məlumat yayıb. Qadın turnirinin qalibləri isə hərəyə 150 min dollar əldə edəcək. Yarışların mükafat fondu, ümumilikdə, 1 milyon dollar təşkil edir.

Dekabrın 25-dən 31-dək keçiriləcək Sankt-Peterburq turnirində şahmatçılar üçün xüsusi viza rejimi təşkil edilib.

Rapid üzrə hazırkı dünya çempionu hindistanlı qrossmeyster Vişvanatan Ananddır. Blits üzrə dünya çempionu isə şahmat tacının sahibi norveçli Maqnus Karlsendir. Qadınlar arasında 2017-ci ildə rapid üzrə turnirdə klassik şahmat üzrə dünya çempionu çinli Tszyuy Ventszyun qalib gəlib. Blits turnirində isə birinci yeri gürcüstanlı Nana Dzaqnidze tutub.

## Prezident kuboku turnirinin püşkü atılıb

Dekabrın 5-də çövkən milli atüstü oyunu üzrə Prezident kuboku uğrunda turnirin püşkü atılıb. Turnir dekabrın 11-13-də və 22-23-də keçiriləcək. Püşkatma mərasimindən əvvəl çövkən milli atüstü oyunu haqqında əsasnaməyə edilmiş yeniliklər və dəyişikliklər barədə komanda üzvlərinə məlumat verilib.

Turnirdə iştirak edəcək səkkiz komanda püşkün nəticələrinə əsasən iki qrupda yer alıb. A qrupunda "Sərhədçi", "Buta Golden", "Ağstafa" və "Murad", B qrupunda isə "Polad", "Omar", "Qarabağ" və "Köhlən" komandaları mübarizə aparacaqlar.

## Badmintonçularımız beynəlxalq turnirdə birinci yeri tutublar

***Azərbaycan badmintonçuları Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Zambiyanın paytaxtı Lusakada keçirilmiş "Zambia International 2018" turnirində uğurla çıxış ediblər.***

İdmançılarımızdan Edi Reski Dviçayo onaltıdabir finalda Kalonde Şarlesə 2:0 (21:11, 21:7) hesabı ilə qalib gəlib. E.Dviçayo ardınca uqandalı Fred Kirabo üzərində 2:0 (21:10, 21:8) hesablı qələbə qazanıb. 1/4 finalda Nigeriya badmintonçusu Qodvin Olofuanı 2:0 (21:3, 21:15) hesabı ilə məğlub edən Edi yarımfinala yüksəlib. Təmsilçimiz yarımfinalda Lüksemburq təmsilçisi Robert Mannı hər iki setdə məğlub edib - 2:0 (21:10, 21:12). Badmintonçumuz həlledici görüşdə nigeriyalı Anuoluvapo Juvon Opeyor üzərində 2:0 (21:11, 22:20) hesablı qalibiyyət əldə etməklə, kişilərin şəxsi yarışında "Zambia International 2018"turnirinin qalibi adını qazanıb.



Digər badmintonçumuz Ezmi Qovimuramadhoni də 1/4 finaladək rəqiblərinə set vermədən irəliləyib.

E.Qovimuramadhoni 1/16 finalda Botsvana, ardınca Zambiya təmsilçilərindən üstün olub - 2:0. O, dörddəbir finalda İordaniya badmintonçusu Bahaedin Əhməd Əlşannikə 1:2 hesabı ilə uduzub.

Kişilərin qoşa yarışında da turnirin qalibi adını badmintonçularımız qazanıblar. Mübarizəyə səkkizdəbir finaldan qoşulan Edi - Ezmi tandemi bu mərhələdə zambiyalı Dalitso Banda - Rodrik Mulenqa Mvansa cütünə 2:0 hesabı ilə qalib gəlib. Badmintonçularımız uğurlu çıxışlarının davamını Zambiya idmançıları Çepus Banda - Endryu Mumba ilə görüşdə də davam etdiriblər - 2:0. Yarımfinalda zambiyalı Nqosa Çonqo - Çizva Nakanda tandemini 2:0 hesabı ilə məğlub edən Edi və Ezmi finalda nigeriyalı Qodvin Olofua - Anuoluvapo Juvon Opeyori cütü üzərində 2:1 hesablı qələbə qazanmaqla kişilərin qoşa yarışında birinci yeri tutublar.

* * *

Beynəlxalq Badminton Federasiyasının yeni reytinq cədvəli açıqlanıb. Badmintonçularımızdan Edi Reski Dviçayo siyahıda 5 pillə irəliləyərək 87-ci sıraya yüksəlib. Cədvəldə 3 pillə irəliləyən Ezmi Qovimuramadhoni isə siyahıda 182-cidir.

Edi-Ezmi tandemi kişilərin qoşa reytinqində 77-ci sıradadır.

Müsahibə

# “Təmiz qələbə qazanan idmançının uğuruna heç bir hakim kölgə sala bilməz”

***Hazırda əksər gənclərimiz asudə vaxtlarını idman zallarında keçirirlər. Bu sağlam cəmiyyət üçün xarakterik göstəricidir. Necə deyərlər, gənc nəsil həm fiziki, həm də mənəvi cəhətdən sağlam olmaq üçün idmana üstünlük verir. Söz yox ki, idman zallarında trenajorla məşq edən idmançılar ideal bədən quruluşuna sahib olurlar. Nəticədə bodibildinq idman növünə olan maraq daha artır. Azərbaycan Bodibildinq və Fitnes Federasiyasının prezidenti Rauf Bünyatəliyevlə söhbət zamanı buna bir daha əmin olduq. Federesiya rəhbəri bildirdi ki, bodibildinq qısa müddət ərzində sürətlə inkişaf edir. Rauf müəllimlə müsahibə zamanı bir sıra maraqlı məsələlər də üzə çıxdı. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***




***- Rauf müəllim, bu yaxınlarda təşkil olunan bodibildinq üzrə ölkə çempionatı yüksək səviyyədə keçirildi. Bu, bir daha onu göstərir ki, bodibildinqdə əvvəlki illərlə müqayisədə diqqət çəkən yüksəliş hiss olunur.***

- Bəli, son 4 ildə bodibildinq üzrə respublika çempionatı yüksək səviyyədə keçirilir. Budəfəki yarış da belə turnirlərdən biri idi. Həm təşkilatçılıq, həm də idmançıların sayı bunu deməyə əsas verir. Sevindirici haldır ki, bu idmançılardan ibarət iki yığma komandanı formalaşdırmağa nail olmuşuq. Qadınlar, mens fizik, klassik bodibildinq və bodibildinqdə böyük yüksəliş hiss olunur. O ki qaldı yarışa, çempionatda Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Zərdab və Quba idmançıları da iştirak edirdilər. Gəncəni təmsil edən idmançılar bu yarışda iki bürünc medala sahib çıxdılar. Sumqayıt idmançıları isə 2 qızıl, 1 gümüş medala yiyələndilər. Həm Bakıda həm də Gəncə, Sumqayıt, Quba və Zərdabda bodibildinqlə məşğul olan gənclər bu yarışda fəallığı ilə seçilirdilər. Artıq yeni klublar açılır, yeni idmançılar üzə çıxırlar. Bir sözlə, bodbildinqin coğrafiyası genişlənir, kütləviliyi artır.

Qeyd etdiyim kimi, ikinci komandamız da əsas heyətin idmançılarından heç də geri qalmır. Düzdür, biz maliyyə cəhətdən bütün idmançılarımızı yarışlara apara bilmərik. Lakin bu mümkün olsa idi, mən böyük məmnuniyyətlə hər iki komandanı eyni vaxtda sınaqdan keçirə bilərdik. Şübhə etmirəm ki, nəticə də ürəkaçan olardı.

***- Respublika çempionatında qadınların fəallığı xüsusilə hiss olunurdu. Artıq kişilərlə yanaşı, qadınların mübarizəsində də güclü rəqabət mühiti formalaşıb.***

- Bəli, bu yarışlarda qadın idmançıların çıxışları onu göstərdi ki, bu idman növünə olan maraq, həqiqətən də, böyükdür. Sevindirici haldır ki, onların arasında yerli idmançılarımız üstünlük təşkil edirlər. Əgər qadın idmançılarımızın hazırlıq səviyyəsi yüksək olarsa, gələcəkdə Avropa çempionatında onları sınaqdan keçirəcəyik. Qeyd etdiyim kimi, builki ölkə çempionatında yeni perspektivli idmançılar üzə çıxdı. Biz yeni ilin ilk həftəsində yığma komandanın üzvləri ilə görüş keçirəcəyik. Bu görüşdə komandanın ümumi hazırlıq səviyyəsi müzakirə olunacaq. İnanıram ki, komandamız gələn ildən etibarən daha güclü kollektivə çevriləcək.

***- Komandamız bu yaxınlarda Ukrayna səfərindən qayıdıb. İstərdik ki, bu yarışla bağlı fikirlərinizi bildirəsiniz.***

- Bəli. Kiyevdə təşkil olunan turnirdə ölkəmizi Fuad Quluzadə təmsil edirdi. Fuad son iki respublika çempionatında ardıcıl olaraq mütləq çempion adını qazanıb. O, sonuncu dünya çempionatında dördüncü yerə sahib çıxdı. Hələ dünya çempionatı keçirilən ərəfədə Ukraynanın Bodibildinq Federasiyasının nümayəndəsi bizə yaxınlaşaraq, Fuadın onların təşkil etdiyi “Diamond Cup” beynəlxalq turnirində də iştirak etməsini xahiş etdi. Biz də onların bu təklifini müsbət qarşıladıq. Bildiyiniz kimi, belə nüfuzlu yarışlarda idmançılara “pro-kart”lar verilir. Bu yarışda isə yalnız mütləq qalibə “pro-kart” verildi. Fuadın çıxışına gəlincə, isə o, bu yarışda çox gözəl çıxış etdi. Gənc idmançımız həm dərəcə, həm də mütləq çəkidə 2 qızıl medal qazanaraq “pro-kart”a sahib oldu. Məlumat üçün bildirim ki, Fuad Quluzadə ötən il Avropa çempionatında üçüncü yeri qazanmışdı.

***- Rauf müəllim, Beynəlxalq Bodibildinq Federasiyasında rəhbər vəzifələrdən biri də sizə həvalə olunub. Bu ərəfələrdə bir sıra idman növləri Olimpiya Oyunlarının proqramına daxil olmağa çalışır. Təmsil olunduğunuz qurumda gələcəkdə bodibildinqin Olimpiya Oyunlarının proqramına daxil olması ilə bağlı hansısa məsələlər müzakirə olunurmu?***

- Konqresdə Bodibildinqin prezidenti Rafael Santoxa həmişə bu barədə ciddi söhbətlər aparır, müəyyən məlumatlar verir. Bu günə qədər bir neçə dəfə Beynəlxalq Olimpiya Komitəsinin başçıları ilə müəyyən görüşlər olub. Sözdə hər bir qrum bizi tanıyır, bizi dəstəkləyir. Amma hələ ki, bu prosesdə elə də ciddi nəticələr əldə olunmayıb. Əgər gələcəkdə bu barədə qərar qəbul olunarsa, biz buna çox sevinərik. Hesab edirəm ki, bu məsələ öz həllini taparsa, biz də öz uğurlarımızla bu hərəkata dəstək olarıq.

***- Əvvəllər bodibildinq üzrə ərəb ölkələrinin komandalarının liderliyi hökm sürürdü. Bəs indi necə, hansı ölkələrin idmançıları öz hegemonluğu ilə seçilir?***

- Bu gün kişilər arasında bodibildinq üzrə ən güclü komanda İran idmançılarından təşkil olunub. Növbəti yerlərdə Misir və digər ərəb ölkələrinin idmançıları qərarlaşırlar. Qadınların yarışında isə Ukraynanı təmsil edən komandalar öz liderliyini qoruyurlar. Polşada təşkil olunan sonuncu dünya çempionatında Ukrayna komandasının birinci yerə layiq görülməsi bu faktı bir daha təsdiqləyir. Rusiya komandası da lider ölkələrdən biri hesab olunur. Bir sözlə, kişilərin yarışında ərəb, qadınların mübarizəsində isə slavyan ölkələri liderdilər. Lakin bizim də bodibildinqçilərimiz beynəlxalq arenada kifayət qədər öz sözlərini demiş idmançılardırlar. Tam səmimiyyətimlə deyirəm ki, idmançılarımız heç bir ölkənin təmsilçilərindən çəkinmirlər.

***- Bodibildinq elə bir idman növüdür ki, burada idmançılar hakim ədalətsizliyindən şikayət edirlər. Bu problemləri aradan qaldırmaq üçün hansısa işlər görülürmü?***

- Fikrimcə, bu söz-söhbətlərə artıq son qoymaq lazımdır. Azərbaycan çempionatından sonra hakimliklə bağlı narazılıqlar yarandı. Etiraf edim ki, mən bu söhbətlərdən artıq yorulmuşam. Bu idman növünün müəyyən bir xüsusiyyəti var. İdmançıların hamısı özlərindən başqa heç kəsi bəyənmirlər. Onlar güzgüyə baxdıqda yalnız özlərini çempion kimi görürlər. Necə ki, hər valideyn üçün öz uşağı əzizdi, bodibildinqçi üçün öz bədəni, əzələləri rəqibsizdi. Onlar özlərindən başqa digər idmançıları görə bilmirlər, yalnız özlərini dünyada bir nömrə hesab edirlər. Əslində isə bu, səhv düşüncədir. Özünü çempion kimi göstərməklə məsələ həll olunmur. Səhnə hər şeyi göstərir. Mən həmişə öz idmançılarıma demişəm ki, elə təmiz qələbə qazanın ki, artıq söz-söhbətlərə, bəhanələrə ehtiyac qalmasın. Təmiz qələbə qazanan idmançının uğuruna heç bir hakim kölgə sala bilməz. Beynəlxalq Bodibildinq Federasiyasında da bununla bağlı müəyyən müzakirələr aparılır, yeni təkliflər nəzərdən keçirilir. Beynəlxalq Hakimlər Kollegiyasının sədri Pavel Flibor bu məsələ ilə bağlı müəyyən standartlar yaratmağı düşünür. Sözsüz ki, bu məsələnin necə həll olunacağını isə gələcək göstərəcək. Düzdür, sonuncu respublika çempionatında hakimliklə bağlı müəyyən xırda səhvlər olsa da, bunu o qədər də böyütmək olmaz. Yeri gəlmişkən, istəyirəm ki, hakimliklə bağlı bir məsələyə aydınlıq gətirim. Mən Azərbaycan çempionatında yarışın baş hakimi kimi, yarışlara ümumi istiqamətlər verirdim. Lakin heç bir idmançıya qiymət yazmırdım. Necə deyərlər, əlim heç protokola belə dəymirdi. Bütün nəticələr katibliyə təqdim olunur. Orada ballar hesablanır və qaliblər müəyyənləşir. Mən qaliblərin adını yalnız təltifetmə mərasimində görürəm.

***- Komandamızı qarşıda hansı yarışlar gözləyir?***

- Yeni ildən sonra komandamız Avropa çempionatına hazırlaşacaq. Qeyd etdiyim kimi, həmin qitə çempionatı may ayında İspaniyanın Santa-Susana şəhərində keçiriləcək. Bu yarışdan əvvəl isə Bakıda respublika çempionatı təşkil etməyi düşünürük. Bodibildinqçilər bundan başqa, ATF klubunun yarışında da iştirak edəcəklər.

***- Rauf müəllim, başa çatmaqda olan 2018-ci ili bodibildinqçilərimiz üçün necə qiymətləndirirsiniz?***

- Mən bu dinamikanı izləyəndə sevinirəm ki, əvvəlki illərlə müqayisədə bodibildinq böyük kütləvilik qazanıb. Bizim üçün sevindirici haldır ki, idmançılarımızın və klublarımızın sayı artıb. Say çox olduqda isə seçim etmək də mümkün olur. Bu il həmçinin kifayət qədər nailiyyətlərimiz də oldu. İlə Fuad Quluzadənin Kiyevdə təşkil olunan “Daimond Cup” turnirindəki parlaq qələbəsi ilə yekun vurduq. Bu uğurlar, sözsüz ki, bizi çox sevindirir.

***Anar Əhmədov***

Stolüstü tennis

# Həvəskarlar “Şüa”da yarışdılar

***Dekabrın 8-də Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə “Şüa” İdman-Sağlamlıq Kompleksində nazirlik, komitə və agentliklərin əməkdaşları arasında stolüstü tennis turniri təşkil edilib.***

Şəxsi xarakter daşıyan yarışda 93 kişi və 7 qadın tennisçi qüvvəsini sınayıb.

Federasiyanın vitse-prezidenti Fazil Məmmədov yarışın açılış mərasimində çıxış edərək turnirin təşkilində əsas məqsədin stolüstü tennisin təbliği, əməkdaşların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili olduğunu deyib. Federasiya rəhbərliyinin ölkəmizdə stolüstü tennisin inkişafı üçün maddi-texniki bazanın gücləndirilməsinə xüsusi diqqət yetirdiyini vurğulayan F.Məmmədov bu istiqamətdə görülən işlərdən danışıb. Stolüstü tennisçilərimizin beynəlxalq arenada qazandıqları nailiyyətlərdən danışan Fazil Məmmədov deyib: “Bu ilin ən böyük uğuru gənclər arasında Avropa çempionatında qızlardan ibarət yığmamızın komanda hesabında qızıl medal qazanması olub. Eyni zamanda, Ninq Jinq şəxsi yarışda birinci yeri tutub. Bu, Azərbaycanın stolüstü tennis tarixində ən böyük qələbədir”.

Sonra yarışlara start verilib.

Turnirdə qadınların yarışında Firəngiz İbadova (İqtisadiyyat Nazirliyi), Günel Xanlarova (Dövlət Gömrük Komitəsi), Aysel Ağayeva (Təhsil Nazirliyi) və Səmiyyə Babazadə (Ekologiya və Təbii Sərvətlər Nazirliyi) müvafiq olaraq fəxri kürsüdə yer alıblar. Kişilərin mübarizəsində isə Vüqar İbrahimov, Tofiq Rzayev, Əmrah Cavadov (Fövqəladə Hallar Nazirliyi) və Elşən Pənahov (Vergilər Nazirliyi) qalib adını qazanıblar. Qaliblər federasiyanın diplom və mükafatları ilə təltif olunublar.

Cüdo

# Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo turniri keçirilib



*(əvvəli 1-ci səhifədə)*

Hafis Hacıyev bu gün Azərbaycan xalqının unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımladığını və ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycanın onun müəyyən etdiyi strateji xətlə inkişaf etdiyini diqqətə çatdırıb.

Ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan da danışan Hafis müəllim Azərbaycanın idman ölkəsi kimi tanındığını qeyd edib. O, son illərdə Azərbaycan cüdoçularının beynəlxalq miqyaslı yarışlarda qazandıqları uğurları yüksək qiymətləndirilib.



Sonra yarışlara start verilib. İdmançılar klubdaxili turnirdə 3 çəki dərəcəsi üzrə yarışıblar. 2005-2006, 2007-2008 və 2009-2011-ci illər təvəllüdlü idmançılar arasında keçirilən yarışlarda yeniyetmə cüdoçular 30 çəki dərəcəsində qüvvələrini sınayıblar. 130-dan çox idmançının mübarizə apardığı yarışın keçirilməsində əsas məqsəd cüdoçuların yarış səviyyəsini artırmaq və komandanın heyətini formalaşdırmaqdan ibarət olub.

Yarışın nəticələrinə əsasən, birinci yeri “Judo Club 2012”nin “Canavarlar” komandası tutub. “Şahinlər” ikinci, “İppon” isə üçüncü yerə sahib çıxıb. Yarışda ilk üç yeri tutan idmançılara diplom və medallar, qaliblərə isə kuboklar təqdim olunub.

Sambo

# Dünya çempionatından bürünc medal

Serbiyanın Novi Sad şəhərində sambo üzrə tələbələr arasında keçirilən dünya çempionatında idmançımız üçüncü yeri tutub.



Samboçumuz Abdulla Abdullayev 74 kq çəki dərəcəsində bürünc medala layiq görülüb.

Qeyd edək ki, dekabrın 6-da start götürən dünya çempionatında ölkəmiz bir idmançı ilə təmsil olunub.

* * *

Sambo üzrə Serbiyanın Novi Sad şəhərində kadetlər arasında dünya birinciliyi keçirilib. Dekabrın 3-də start götürən birincilikdə Azərbaycan üç samboçu ilə təmsil olunub. Azərbaycan idmançısı yarışda üçüncü yeri tutub. Çempionatda 78 kq çəki dərəcəsində mübarizə aparan Adil Adilzadə bürünc medala layiq görülüb.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Qadın idmanı fiziki və mənəvi tərbiyədə özünəməxsus uğurları ilə seçilir

İkinci dünya müharibəsindən sonra dünya yeni inkişaf mərhələsinə qədəm qoydu. Ağır keçən günlər arxada qaldı. Respublikada hər bir sahədə yeni dirçəliş dövrü başladı. Müharibədən əvvəl başlanan işlər yenidən davam etdirildi. Bu işlər idmanda da öz əksini tapdı. İdman və bədən tərbiyəsində yeni dövr başlandı. Kişi və qadın idmançıların kütləvi halda idmana gəlişi təmin edildi.

Böyük Vətən müharibəsi illərində bir çox azərbaycanlı qadınların göstərdiyi misilsiz hünərlərdən az yazılmayıb. Atıcı Ziba Qəniyeva və ilk azərbaycanlı təyyarəçi qadınlardan biri Züleyxa Seyidməmmədovanı xüsusilə qeyd etmək lazımdır. Bu igid qadınlar şöhrətin zirvəsinə idmanda qazandıqları iradə, dözüm və cəsarət kimi fiziki keyfiyyətlər sayəsində çatıblar. 1936-cı ildə 62 nəfər qadının Hacıkənd-Bakı atlı yürüşü, 1938-ci ildə 14 nəfər gənc idmançı qızın min kilometrlik məsafəyə 17 günlük velosiped yürüşü qadın idmançılarımızın tarixə yazılan nəticələridir.

1957-ci ildə Zaqafqaziya respublikaları və Moldovada SSRİ xalqlarının ənənəvi VIII Spartakiadasında voleybolçu qadınlarımız mükafata layiq görülərək ikinci yerə çıxıblar. Bu uğurlar, əlbəttə, təsadüfi idman qələbələri sayılmırdı. Artıq həmin illərdə Azərbaycan bədən tərbiyəsi hərəkatında fəal iştirak edən qadınların sayı 20 mini ötüb keçmişdi.

## Azərbaycan ilk dəfə qadınların I Spartakiadasına ev sahibliyi etmişdi

Respublikamızda keçmiş SSRİ-nin başqa şəhərlərindən idmançı qadınlar dəvət edilərək evlə təmin olunurdu. Gənc kadrlarımız onlarla birlikdə iştirak edərək SSRİ-də yüksək idman nəticələri əldə etmişdilər. Məsələn, 1957-ci ildə dörd qız idmançımız - Z.Ələsgərova, Ş.Manqutova, F.Kasumova və Nina Kosereva SSRİ birinciliyində bürünc medal qazanmışdılar. Belə ki, 1959-cu ildə qadın idmançıların göstərdiyi yüksək nəticələrə görə Azərbaycan komandası Zaqafqaziya və Moldova zona yarışlarında birinci olmuşdu. Bu tərəqqi 1961-ci ildən başlayaraq daha da güclənmişdi. 1961-ci ildə SSRİ respublikaları içərisində Azərbaycan ilk dəfə qadınların I Spartakiadasına ev sahibliyi etmişdi. Bu isə qadın idmanının inkişafı yolunda atılmış böyük addım idi. Bu yarışlarda yüngül atletika üzrə idman ustası Ziba Ələsgərova, gimnastika üzrə idman ustası Məsumə Məmmədova, Züleyxa Hacıyeva, Adilə Yenigeyeva və başqaları uğurla çıxış etmişdilər. Azərbaycanda 67 qadın SSRİ idman ustası, 1000-dən artıq qadın I dərəcəli idmançı yetişib, 8 qadın atlet əməkdar məşqçi fəxri adına layiq görülmüşdü. 32 qadın ümumittifaq və respublika dərəcəli hakim adı almış, 37 nəfər fəal qadın “Bədən tərbiyəsi əlaçısı” nişanı ilə təltif edilmişdi. 800 qadın Azərbaycan Bədən Tərbiyəsi İnstitutunu bitirmişdi. 102 qadın respublika idman təşkilatlarında rəhbər vəzifələrdə çalışırdı. Eyni zamanda 1500 nəfər orta yaşlı və yaşlı qadın sağlamlıq zonalarına cəlb edilmişdi.

1962-ci ildə keçmiş SSRİ-nin hər yerindən qadın bədən tərbiyəçilərin Bakıya gələrək, burada təcrübə mübadiləsində iştirak etmişdilər. Qadınlar arasında idmanın belə kütləvi inkişafı və əldə edilən yüksək nəticələr respublikamızda fəaliyyət göstərən Qadınlar Şurasının əməyi sayəsində ərsəyə gəlmişdi. Məhz buna görə də, SSRİ-də qadın idmanına həsr olunmuş ilk müşavirə Bakıda təşkil edilmişdi.

## Görülən işlər təkcə paytaxtı əhatə etmirdi

1962-ci il oktyabrın 24-27-də Bakıda qadınlar arasında bədən tərbiyəsi işi üzrə təcrübə mübadiləsinə həsr olunmuş I Ümumittifaq Müşavirəsi keçirildi. Bu, respublikada qadınlar arasında bədən tərbiyəsi və idmanın təbliği üçün mühüm stimul olmuşdur.








1962-ci ildə Qahirədə dünya gənclərinin çempionatında Bakı qılınc oynadanı Karelina Mirzəyeva qızıl medal, üzgüçü V.Cenyekova Helsinkdə keçirilən VII Ümumdünya tələbə və gənclər festivalında gümüş medal qazandılar. Voleybolçu İnna Rıskal SSRİ yığma komandasının heyətində dünya çempionu oldu.

Respublikamızın idmançı qadınları böyük qüvvəyə çevrilmişdilər. Onların şöhrəti Azərbaycandan uzaqlara yayılmışdı. Voleybol üzrə SSRİ çempionatın birinci dövrəsi başa çatdırılmış, Bakının “Neftçi” cəmiyyəti qadın komandası bu yarışları yüksək səviyyədə keçirmişdi.

Qəzetlərdə və radio verilişlərində istedadlı qılıncoynadan Karelina Mirzəyevanın adı daha tez-tez çəkilirdi. O, güclü sovet idmançıları sırasına daxil olmaqla kifayətlənməmiş, beynəlxalq yarışlarda da görkəmli qələbələr qazanmışdı. İdman ustası Ziba Ələsgərova aspirant idi. O, təhsilə xeyli vaxt sərf edirdi. Buna baxmayaraq, atletika sahəsində ustalığını artırmaq üçün həvəslə çalışırdı. Yüngül atletikanın beş növü və qısa məsafələrə qaçmaq üzrə Ziba Ələsgərovanın nəticələri getdikcə artırdı. Gənclər öz tərbiyəçiləri Firuzə Qasımovanı hər dəfə yaxşı müəllim kimi qiymətləndirirdilər. O, eyni zamanda yaxşı idmançı idi. Respublika yığma komandasının üzvləri həmişə ona çatmağa çalışırdılar. Tatyana Zatulovskaya şahmat üzrə ölkə birinciliyində yenə də yüksək ustalıq nümayiş etdirmişdi. O, ikinci yeri tutmuş, gümüş medaldan əlavə daha beş xüsusi mükafat almışdı.

Respublikamızda bədən tərbiyəsi və idman qadınlar arasında geniş yayılır. Bunu da qeyd etmək kifayətdir ki, Azərbaycan qadınlarının birinci spartakiadasında yüz min nəfərədək bədən tərbiyəçisi iştirak etmişdir. Bu yarışların gedişində 55 rayon və şəhər, 2 respublika rekordu müəyyən edilmiş, 30 nəfər idmançı birinci, 375 nəfər ikinci və 1500 nəfərə yaxın idmançı isə üçüncü yeri tutmuş, xeyli gənc müxtəlif idman norması dərəcəsini yerinə yetirmişdir.

Qadınları və qızları kütləvi surətdə bədən tərbiyəsi və idman məşğələlərinə cəlb etmək sahəsində Azərbaycanın idman təşkilatlarının iş təcrübəsi ölkəmizin idman ictimaiyyətini maraqlandırırdı. SSRİ idman cəmiyyətləri və təşkilatları ittifaqı Mərkəzi Şurasının Rəyasət Heyəti respublikamızın bədən tərbiyəsi təşkilatlarının bu sahədə gördükləri işə dair hesabatını dinləyərək bəyənmişdir. Rəyasət heyəti qeyd etmişdi ki, Azərbaycan idman təşkilatlarının bu sahədə qazandıqları təcrübə geniş yayılmalıdı. Bundan əlavə göstərilmişdir ki, Azərbaycanda qadınlar arasında kütləvi bədən tərbiyəsinin inkişafına dövlət böyük qayğı göstərir.

Bununla əlaqədar olaraq Bakıda qadınlar arasında iş üzrə bədən tərbiyəsi və idman təşkilatlarının təcrübə mübadiləsi səciyyəsi daşıyan müşavirə keçirmək qərara alınmışdı. Bu müşavirədə Orta Asiya, Qazaxıstan respublikalarının, Rusiya Federasiyası vilayətlərinin və müttəfiq respublikaların nümayəndələri iştirak etmişdilər.

İdman respublikamızın minlərlə tələbə qızları və gənc fəhlə qadınları üçün sağlamlıq mənbəyi olmuşdur. Buna baxmayaraq, şəhərlərin çoxunda, xüsusilə rayonlarda qızlar arasında idman zəif inkişaf etmişdi. 1961-ci ildə vəziyyət dəyişdi. Azərbaycan qadınlarının birinci spartakiadası böyük əhəmiyyətə malik idi. Yarışların startına yüz min qadın idmançı çıxmışdı. Spartakiada bədən tərbiyəsi hərəkatının böyük imkanlara malik olduğunu göstərdi.

Bu gün cəsarətlə deyə bilərik ki, respublikada qadınlar arasında idman yeni, daha yüksək pilləyə qalxmışdır.

## Vətənin adını ucaldan qadın idmançılar

Həmin illər Azərbaycanın bədən tərbiyəsi təşkilatları tərəfindən 67 min dərəcəli idmançı, o cümlədən 112 idman ustası hazırlamışdı. Maraqlıdır ki, idman qurumları əsas vəzifə kimi bütün gənclələri, şəhər və kəndlərdə idmana olan qızları idman məşğələlərinə cəlb etməyi qarşıya məqsəd qoymuşdu. Bu ərəfədə rayonlarda atletika, voleybol və basketbol üzrə yarışlar keçirilirdi. Yarışların qaliblәri Bakıda təşkil olunan final oyunlarında iştirak etmişdilər. Ən yaxşılar Voronejdə keçirilən ümumittifaq oyunlarında qüvvələrini sınamışdılar. Qeyd edək ki, yarışlarda respublikamızı 150 nəfər (10-14 yaşlı oğlan və qız) təmsil etmişdilər. Belə ki, əgər 1956-cı il yanvarın 1-dək ölkəmizdə 65 min nəfər qadın bədən tərbiyəçisi var idisə, 1961-ci ildə onların sayı təxminən iki dəfə artmışdı.

Ölkədə yerli mütəxəssis hazırlanmasında da bir sıra uğurlar əldə olunmuşdu. 1946-1958-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu 966 idman mütəxəssisi (onlardan 629 kişi, 337 qadın) bitirmişdi ki, onlardan da 510 nəfəri azərbaycanlı idi.

İdman sahəsində görülən işlər tezliklə öz bəhrəsini verməyə başladı.

1957-ci ildə Zaqafqaziya və Moldova respublikalarında keçirilən səkkizinci ənənəvi spartakiadada azərbaycanlı idmançılar yalnız Gürcüstan idmançılarından geri qalmışdı. Qadın həmyerlilərimiz voleybol yarışlarının gümüş mükafatına yiyələnmişdi.

Ölkədə keçirilən II Spartakiada da nəticələr uğurla yadda qalmışdı. Belə ki, voleybolçular 3-cü yerə layiq görülmüşdülər. Respublikanın basketbol komandası ilk altılıqda yer almışdı. Digər idman növlərində də qənaətbəxş nəticələr var idi. Məsələn, Ziba Ələsgərova 100 m məsafəyə qaçışda Azərbaycan rekordunu təzələyərək finişə dördüncü çatmışdı. 4x100m estafet yarışında qadınlar və rapiraçı K.Mirzoyeva fərqlənmişdilər. SSRİ Xalqlarının II Spartakiadasında Azərbaycan idmanının şərəfini məşhur idman ustası voleybolçu Fatma Nəsirova qorumuşdu. Qeyd olunduğu kimi, bu və ya digər yarışlardan belə qənaətə gəlmək olurdu ki, qadınların bədən tərbiyəsi hərəkatı da getdikcə genişlənir. Bu hərəkatın önündə Züleyxa Hacıyeva, Ziba Ələsgərova, Zeynəb Rzayeva, Məsumə Məmmədova, Firuzə Qasımova və başqaları irəliləyirdilər.

## İdmanda kütləvilik yeni uğurlara aparan yolun başlanğıcıdır

İllər ötdükcə, Azərbaycan qadınları arasında yeni perspektivli idmançılar üzə çıxmağa başladı. Tarixi faktlara nəzər salsaq görərik ki, bədən tərbiyəsi kollektivlərinin bölmə və qruplarında 1973-cü ilin yanvar ayına qədər, ümumiyyətlə, 789311 nəfər məşğul olurdu ki, onlardan 183097-ni qadınlar təşkil edirdi. Bölmələrin sayı isə günü-gündən artırdı. Buna səbəb qadınları bədən tərbiyəsi və idman məşğələlərinə müntəzəm surətdə cəlb etmək üçün xüsusi tədbirlərin təşkil olunması idi. 1971-ci il iyulun 16-da Ümumittifaq spartakiadasında Azərbaycan həndbolçu qızları gümüş medal qazandılar. Həmin heyətdə iki qat Olimpiya çempionu və mükafatçısı İnna Rıskal (Tokio-1964, Mexiko-1968, Münhen-1972, Monreal-1976), XXI Yay Olimpiya Oyunlarının çempionu (Monreal-1976) Rəfiqə Şabanova, Lyudmila Şubina, Moskva-1980-ın qızıl mükafatçısı Larisa Savkina, Esmira Əsgərova Dostluq-84 yarışlarının da çempionu (Los-Anceles) olmuşdular.

Həmin illər respublikada bədən tərbiyəsi və idman sahəsində müxtəlif vəzifələrdə 1786 nəfər qadın işləyirdi ki, bu da 1961-ci ildə olduğundan 1494 nəfər çox idi. Onların çoxu respublikada bədən tərbiyəsi hərəkatının inkişafına böyük əmək sərf etmişlər. Həmin qadınlardan Zeynəb Rzayeva, Sara Əliyeva, Əminə Nurullaqızı, Sima Dəmirova, Ülkər Qasımova və başqalarını misal göstərmək olar.

1974-cü il avqustun 6-da Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin “Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında” qərarı qəbul olundu. Qərarda idman qurğularının tikilməsi, bölgələrdə bədən tərbiyəsi və idmanın inkişafı, respublikanın qabaqcıl idmançılarının ustalığının artırılması və digər məsələlərə yer ayrılırdı. Qərardan sonra idman sahəsində yeni bir canlanma hökm sürməyə başladı. İdmana olan diqqət və qayğı tezliklə daha da artdı. Bunun bariz nümunəsi olaraq bir sıra idman növlərində yeni nailiyyətlər əldə olundu. Belə ki, 1974-cü ildə tennis cütlüyü S.Lixaçev - N.Biryukova ölkə çempionu titulunu yiyələndilər. İdman malları fabrikinin həndbolçu xanımları ümumittifaq birinciliyində fəxri kürsünün üçüncü pilləsində qərarlaşdılar. Sumqayıtlı Valentina Popova stolüstü tennis üzrə SSRİ-nin yığma komandasının tərkibində iki il ardıcıl olaraq qitənin ən yaxşı oyunçusu seçildi.

Statistikaya görə, 1974-75-ci illərdə respublika miqyaslı yarış və spartakiadalarda 673 min nəfərdən çox idmançı iştirak edib. Onlardan 348 min nəfəri ƏMH kompleksinin normalarını ödəmiş, 201 mini isə dərəcə normalarını yerinə yetirmişdilər. 1974-cü ilin kütləvi bədən tərbiyəsi və idman yarışlarında 432 nəfər ustalığa namizəd, 2430 nəfər isə birinci dərəcə normasına yiyələnmişdi.

Respublikanın idmançıları 1977-ci ildə Lvovda qadınlar arasında güllə atıcılığı üzrə SSRİ çempionatında onlara bəslənilən ümidləri doğrultmuşdular. L.Yemelyanova 5 kiçik çaplı tüfəngdən 50 metr məsafədə atışmada ustalıq nümayiş etdirərək, 587 xalla toplayaraq (bu nəticə dünya rekordundan cəmi 2 xal geri qalır) SSRİ çempionatının qızıl medalın sahib olmuşdu.

Həmin illərdən etibarən idmançı qadınlarımızdan “SSRİ idman ustası”, “Əməkdar idman ustası”, “Azərbaycanın Əməkdar məşqçisi”, “Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi” adına layiq görülənlərin sayı xeyli artmağa başlamışdı.

Beləliklə, bu yazıda Azərbaycanın qadın idmançılarının əldə etdiyi nailiyyətlərə nəzər saldıq. Qarşıdakı saylarımızda isə müstəqillik illərində ölkə idmanında uğur qazanan qadın idmançılar barəsində ətraflı məlumat verməyə çalışacağıq. Bu məlumatlar idmanda ilk addımlarını atan uşaq, yeniyetmə və gənc idmançıla üçün də maraqlı olacaq.

***Dilqəm Quliyev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Bölgə idmanı

Mingəçevirdə 13 yaşınadək məktəblilər arasında “Qızlar futzal kuboku” turniri keçirilib.

“Kür” Olimpiya Tədris-İdman Mərkəzinin idman zalında keçirilmiş yarışda rayonun 12 məktəbindən 120 şagird iştirak edib.

Turnirin ilk günündə qrup, növbəti gün isə play-off mərhələsinin qarşılaşmaları keçirilib. AFFA və UEFA tərəfindən iştirakçı komandalar idman geyimləri və idman ayaqqabıları ilə təmin olunublar.

Mingəçevir şəhər 4 saylı tam orta məktəbin komandası turnirin qalibi olub. Üç saylı və 10 saylı tam orta məktəbin komandası isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Mükafatçılara diplom və medallar, qalib komandaya isə kubok təqdim edilib. Üç saylı tam orta məktəbin komandasının üzvü Sevinc Mirzəliyeva turnirin ən yaxşı oyunçusu seçilib.

Xatırladaq ki, AFFA və UEFA-nın dəstəyi ilə keçirilən “Qızlar futzal kuboku” layihəsi sayca ikinci dəfə təşkil olunur. İlk layihə oktyabrın 27-28-də Qubada keçirilib. Məqsəd gələcəkdə qızlar futzal liqasını, həmçinin futzal üzrə qadınlardan ibarət milli komandanı yaratmaqdır.

Növbəti aylarda layihə daha 5 regionda keçiriləcək.

* * *

Balakən rayonunun Qabaqçöl qəsəbə tam orta məktəbinin idman zalında yeniyetmələr arasında yunan-Roma güləşi üzrə rayon birinciliyi keçirilib. Yarışda 70-dən çox yeniyetmə idmançı mübarizə aparıb. İdarənin tədbirlər planına uyğun olaraq keçirilən birincilikdə güləşçilər 6 çəki dərəcəsi üzrə yarışıblar. Qalib idmançılar mükafatlandırılıblar.

* * *

İspaniyanın Marina Dor şəhərində yeniyetmələr arasında taekvondo üzrə Avropa birinciliyi keçirilib. Komandamız qitə birinciliyində 11 taekvondoçu ilə təmsil olunub. Azərbaycan yığma komandasının tərkibində Masallı Rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin yetirməsi Rahid Vəliyev də iştirak edib. 37 kq çəki dərəcəsində qüvvəsini sınayan idmançımız Fransa, Türkiyə və Rusiya idmançılarına qalib gələrək yarımfinala yüksəlib. Taekvondoçumuz bu mərhələdə yenə də rusiyalı idmançı ilə qarşılaşıb. R.Vəliyev bu görüşdə rəqibinə 7:6 hesabı ilə qalib gələrək, Avropa birinciliyinin finalına vəsiqə qazanıb. İdmançımız fiinalda Danimarka təmsilçisi ilə görüşdə məğlub olaraq gümüş medala layiq görülüb.

* * *

Ağsuda rayon Gənclər və İdman İdarəsi və Uşaq-gənclər idman-şahmat məktəbinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan məktəblilər arasında dama idman növü üzrə rayon birinciliyi keçirilib. Olimpiya sistemi üzrə keçirilən yarışlarda iki yaş qrupundan (10 və 16 yaş) ümumilikdə 32 məktəbli iştirak edib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışlar üç gün davam edib və dekabrın 8-də başa çatıb. Hər yaş qrupunda ilk üç yeri tutan idmançılara gənclər və idman idarəsinin diplomları verilib.

* * *

İsmayıllı Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo



üzrə 2007-2008-ci il və 2009-2010-cu illər təvəllüdlü idmançılar arasında açıq rayon birinciliyi keçirilib. Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının təsdiq etdikləri əsasnaməyə uyğun olaraq keçirilən açıq birincilikdə İsmayıllı, Şamaxı, Qobustan, Qəbələ, Oğuz, Gəncə və Bakıdan olan 266 idmançı qüvvəsini sınayıb. Yarışlardan əvvəl gənclər və idman idarəsinin rəis müavini Rauf Rəcəbov, məşqçi müəllim Əkbər Şəfaqətov çıxış edərək ulu öndər Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyəti, Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə barədə ətraflı danışıb, idmançılara uğurlar arzulayıblar. Qaliblər gənclər və idman idarəsinin diplom və medalları ilə təltif olunublar.

* * *

Şəki Olimpiya İdman Kompleksində basketbol üzrə zona birinciliyi keçirilib. Oğlanlardan ibarət komandalar arasında keçirilən yarış ev sahiblərinin qələbəsi ilə başa çatıb. Sonrakı yerləri Oğuz və Qax rayonlarının komandaları tutublar. Gənclər və İdman, Təhsil nazirliklərinin, Milli Olimpiya Komitəsi və Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təsdiq etdiyi Əsasnaməyə uyğun olaraq, “Məktəblər arasında respublika çempionatı”çərçivəsində keçirilən zona yarışında 10 şəhər və rayonun - Şəki, Zaqatala, Qax, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, Ağsu, Göyçay və Ağdaşın komandaları mübarizə aparıblar. Olimpiya sistemi üzrə keçirilən zona yarışında ilk iki yeri tutan Şəki və Oğuz komandaları respublika birinciliyinin Bakıda keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir

***Azərbaycan qədim zamanlardan müxtəlif xalqların və mədəniyyətlərin vətəni olub. Bu xalqların Azərbaycan dövlətinə sadiqliyi, tariximizə ehtiramla yanaşması mənəvi dəyərlərimizin mahiyyətindən qaynaqlanır. Azərbaycançılığın əzəməti bu müqəddəs yurdu öz vətəni hesab edən bütün insanların maddi və mənəvi gücündədir. Bu mənada Azərbaycanda multikulturalizm və tolerantlığın əsaslarını azərbaycançılıq ideologiyasında axtarmaq lazımdır. Dini etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdə yaşayan bütün insanlar bu məfkurəyə ögey münasibət bəsləmir, əksinə, azərbaycançılığı birləşdirici ideya kimi dəyərləndirirlər. Ölkəmizdə əsrlərdən bəri yaşayan digər xalqların milli adət-ənənələrinə, dəyərlərinə “yad baxış” sistemi kimi mövcud deyil. Təkcə bir faktı deyək ki, hazırda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Azərbaycan dövləti əsrlərdən bəri xalqımızla çiyin-çiyinə yaşayan azsaylı xalqların, etnik qrupların mənəvi dəyərlərinin qorunması-nı və yaşadılmasını vacib məqam kimi diqqət mərkəzində saxlayıb.***



## Ölkəmiz müxtəlif xalqların, dinlərin, mədəniyyətlərin birləşdiyi bir məkandır

Müasir Azərbaycan multikulturalizm məkanı kimi dinlərin müxtəlifliyini vahid harmoniyada birləşdirən unikal ölkəyə çevrilib. Bu harmoniya respublikamızda yaşayan hər bir etnik qrupun, xalqın ümummilli həmrəyliyinə xidmət edir. Heç bir mübaliğəyə varmadan, qətiyyətlə demək olar ki, Azərbaycan tolerantlığı dövlətimizin qanunları ilə qorunan ləyaqətliliyin özüdür, ölkə vətəndaşlarının həyat tərzidir. Tarixə nəzər salsaq, deyilənlərin reallığa söykəndiyini görərik. Sovet sisteminin tüğyan etdiyi dövrlərdə də belə olub, müstəqillik illərimizdə də bu cür davam edir. Tarixin qanlı-qadalı illəri, üzləşdiyimiz faciələr həmrəyliyimizi, bərabərliyimizi məngənəyə sala bilməyib. Azərbaycanda yaşayan xalqlar üçün dini və milli tolerantlıq mənəvi keyfiyyətlərin daşıyıcısıdır. Burada ayrı-ayrı inancları özünün mənəvi qidası hesab edən insanların əsrlər boyu əmin-amanlıq şəraitində yaşaması bəşəriyyətə sülh çağırışı kimi dəyərləndirmək olar. Ölkəmiz müxtəlif xalqların, dinlərin, mədəniyyətlərin birləşdiyi bir məkandır. Bu ənənə, bu dəyərlər indi daha geniş sferada inkişaf etdirilir, qorunur. Vahid dəyərlər respublikamızda dinlər və millətlər arasında dostluğun, mehriban münasibətlərin qorunmasında, multikulturalizmin təmin edilməsində əsas rola malikdir. Milli mədəniyyətin qorunub saxlanılması həmin mədəniyyətin daşıyıcısı olan xalqların dininin, adət-ənənələrinin qorunması deməkdir. Eyni coğrafi məkanda yaşayan xalqların milli dəyərlərinin yaşadılması isə dövlətçiliyin, demokratiyanın inkişafı, vahid dəyərlər sisteminin möhkəmliyinə zəmin yaradan mühüm amildir. Tarix boyu Azərbaycan xalqı ilə birgə, çiyin-çiyinə yaşayan xalqların və etnosların mədəni irsinin öyrənilməsinə, eləcə də, bu irsin inkişafına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, Azərbaycan Milli Elmlər Akademiyasında milli azlıqların dil, mədəniyyət, tarix və etnoqrafiyasını öyrənən şöbə fəaliyyət göstərir.

## “Multikulturalizm Azərbaycanda həyat tərzidir”

Azərbaycanda dini görüşlərinə görə heç kimə təzyiq göstərilmir. Əksinə, ölkəmizdə Multikulturalizm Mərkəzi yaradılıb, əhalini bu istiqamətdə maarifləndirmək üçün Bilik Fondu təsis edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi bir daha göstərdi ki, dini-milli tolerantlığın inkişafı dövlətimizin önəm verdiyi mühüm məsələdir. Respublikamızda mövcud olan bütün dinlərə, mədəniyyətlərə, dillərə bərabər imkanlar yaradılıb. Azsaylı xalqların folklor günlərinin keçirilməsi, onların etnoqrafiyası, musiqisi, tarixi ilə bağlı dövlət səviyyəsində tədbirlərin təşkil edilməsi Azərbaycanda tolerantlıq və multikulturalizmin reallığıdır. Ölkəmizdə həyat tərzinə çevrilən tolerantlıq və multikulturalizm burada yaşayan azsaylı xalqların və etnik qrupların həmrəyliyinə, birgə yaşayışına zəmin yaradıb. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə multikulturalizmin inkişafını yüksək dəyərləndirərək demişdir: “Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir. Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Budur bizim reallıqlarımız. Budur normal həyat tərzi, budur normal siyasət”. Dövlət başçısının bu sözləri bir daha təsdiq edir ki, Azərbaycan modeli dinlərin, mədəniyyətlərin qarşılıqlı hörmət və ehtiram şəklində yaşamasını təmin edən unikal bir sistemdir. Bu sistem bütün dünyaya örnəkdir. Azərbaycan milli və dini azlıqların müdafiəsi istiqamətində özünəməxsus normativlərə malik olan bir ölkədir. Respublikamızda milli azlıqların dəstəklənməsi prinsiplərinə ciddi şəkildə əməl olunur. Eyni zamanda, multikulturalizm mühitindən sui-istifadə etmək istəyənlərə qarşı barışmaz mövqe nümayiş olunur. Dövlətin və xalqın qətiyyətli mövqeyi ölkədə əmin-amanlığın, sabitliyin təminatıdır. Məhz buna görədir ki, Azərbaycanda milli və dini zəmində münaqişələr baş vermir. Əminik ki, ölkələri, xalqları, fəlakətə sürükləyən belə münaqişələr Azərbaycanda heç vaxt olmayacaq. Multikulturalizmin, tolerantlığın həyat tərzinə çevrildiyi ölkəmizdə milli azlıqların nümayəndələri siyasi, iqtisadi elitada təmsil olunur, inkişaf prosesinə öz töhfələrini verirlər. Bu, birliyimizin, birgə yaşayışımızın təntənəsidir.

Fərqli dinlər və mədəniyyətlər arasında dialoq və qarşılıqlı anlaşmaların geniş müzakirəsinə, multikulturalizmin təbliğinə müasir dünyamızda böyük ehtiyac yaranıb. Dinlərarası münasibətlərdə böhran yaşandığı bir zamanda belə müzakirələrin aparılması çox vacibdir. Bu istiqamətdə Azərbaycanda bir sıra tədbirlər həyata keçirilməkdədir. Azərbaycanda multikulturalizm, humanitar məsələlərlə bağlı keçirilən beynəlxalq forumlar, konfranslarda dünyanın bir sıra ölkələrinin təmsilçiləri iştirak edirlər. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) artıq Almaniya, Portuqaliya, Rusiya, Qazaxıstan və İtaliyada rəsmi filialları fəaliyyətə başlayıb. Xaricdə filialların yaradılması ilə yanaşı, respublikamızın bölgələrində də multikulturalizmi təbliğ edən, onu cəmiyyətin həyatına elmi və düşünülmüş şəkildə daxil edən çoxsaylı tədbirlər həyata keçirilir. Artıq Oğuzda, Qaxda multikulturalizm ideyalarının carçısı olan Bilik evləri açılıb. İsmayıllıda isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəliyi fəaliyyətə başlayıb.

Azərbaycan Prezidentinin multikulturalizmin inkişafı ilə bağlı imzaladığı Tədbirlər Planı bu işin həyata keçirilməsində əhəmiyyətli rol oynayacaq. Tədbirlər Planı bir il üçün nəzərdə tutulmayıb. Bu, əslində “Multikulturalizm ili” bitəndən sonrakı dövrə də hesablanmış və perspektivi uzun gələcəyə yönəlmiş bir layihədir. “Azərbaycan multikulturalizmi” fənninin tədrisi buna misal ola bilər. Hazırda dünyanın 13, Azərbaycanın 28 ali təhsil ocağında bu fənn tədris edilir və bu fəaliyyət sferası gündən-günə genişlənir.

## “Azərbaycan əsrlər boyu mədəniyyətlər və dinlərin kəsişməsində yerləşib”

2016-cı il aprel ayının 25-27-də Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirildi. Forumda dünyanın 140-dan çox ölkəsini təmsil edən nümayəndə heyətləri, beynəlxalq təşkilatların, dini konfesiyaların nümayəndələri iştirak edirdi. “İnkluziv cəmiyyətlərdə birgəyaşama; Çağırış və məqsəd” şüarı altında keçirilən forum çərçivəsində 40-dan çox tədbir təşkil olundu. Bu, Azərbaycanın multikulturalizm və tolerantlıq kimi həssas bir məsələnin geniş şəkildə təbliğinə önəm verdiyinin göstəricisidir. Tədbirdə ekstermizmə və terrora qarşı mübarizə, qlobal vətəndaşlıq, inkluziv cəmiyyətlərin qurulması, multikulturalizm və digər məsələlər ətrafında geniş müzakirələr aparıldı.

Forumun açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Azərbaycan əsrlər boyu mədəniyyətlər və dinlərin kəsişməsində yerləşib. Əsrlər boyu dinlər, mədəniyyətlər Azərbaycanda inkişaf edib. Azərbaycanda hər zaman tolerantlıq, multikulturalizm mövcud olub. Ona görə də Azərbaycanda bütün etnik qruplar və dinlər bir arada yaşayır, yaradırlar. Bu, zənginliyimizdir, biz tariximizlə fərəhlənirik”.

Azərbaycan xalqı bu ərazidə yaşayan millətlərin, azsaylı xalqların dininə, mədəniyyətinə ehtiramla yanaşır. Bu gün ölkəmizdəki məscidlər, sinaqoqlar, katolik və pravoslav kilsələri təmir olunur və qorunur. Azərbaycan dövləti bu zənginlikləri, tarixin silinməz səhifələrini qoruyub saxlayır. Bütün bunlar isə onu deməyə əsas verir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir. İnklüziv cəmiyyətlərdə birgə yaşayış dövlətimizin prioritet məsələsidir. Bu məsələnin geniş sferada öz həllini tapması ölkəmizdə ksenofobiya, irqçilik kimi ciddi problemlərin kökündən ləğvinə mühüm töhfədir.

Sivilizasiyalar Alyansının VII Qlobal Forumu bütün dünyaya multikulturalizm sahəsində ən optimal modelin məhz Azərbaycan modelinin olduğunu bir daha sübut etdi. Multikulturalizmin təbliği isə Azərbaycanın dünyaya sevgi, həmrəylik mesajı, Azərbaycan reallıqlarının daha aydın şəkildə beynəlxalq ictimaiyyətə çatdırılmasıdır.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün.*

# FUTBOL



## Milli komandamızın baş məşqçisi istefa verdi

Qurban Qurbanov futbol üzrə Azərbaycan milli komandası ilə yollarını ayırıb.

Bu barədə o, özü məlumat verib. Q.Qurbanov bildirib ki, aşağı yaş qrupları üzrə bütün komandaların baş məşqçiləri də istefaya gedəcək. "Biz sıfırdan başlamalıyıq. Futbolumuzda çatışmayan cəhət çoxdur. Biz 6 illik plan verməmişdik. Bu işləri hissə-hissə görməliyik. Ola bilsin, üzərimdən böyük yük qalxdı. Mən milli ilə klubları bir-birindən ayırmadım. Öz işimi vicdanla gördüm. Bunun üçün rahatam. Yaxşı baş məşqçilərimiz var. Bu posta kimin təyin olunmasına ən yaxşı qərarı AFFA verəcək. Milli ilə vidalaşacağam. Qarşılıqlı razılıq əsasında qərar qəbul olunub. Gördülər ki, iki yerdə çalışmaq çətindir. Olduğum müddətdə hər şeyi düz etməyə çalışdım. Nə vaxtsa yığmaya qayıdacağımı bilmirəm", - deyə Q.Qurbanov əlavə edib.

## "Aşağı yaş qrupları üzrə milli komandaların baş məşqçiləri də istefaya göndərilib"

"Futbol üzrə milli komanda ilə yanaşı, "Qarabağ" klubunun nəticələri də bizim üçün vacibdir. Lakin təcrübə göstərdi ki, baş məşqçi üçün iki yerdə çalışmaq çox çətindir. Qurban Qurbanovla bağlı qərar qəbul olundu ki, işini bir yerdə davam etdirsin. Buna görə də milli komandanı çalışdırmasına dair onunla imzalanan müqaviləyə xitam verildi. AFFA İcraiyyə Komitəsi Qurban Qurbanova minnətdarlığını bildirdi. Təəssüf ki, Azərbaycan yığma komandasının UEFA Millətlər Liqasında çıxışı uğurlu olmadı".

Bu sözləri dekabrın 8-də AFFA-nın baş katibi Elxan Məmmədov milli komandanın baş məşqçisi Qurban Qurbanovun istefası ilə bağlı açıqlamasında deyib.

Baş katib bildirib ki, futbol üzrə aşağı yaş qrupları üzrə milli komandaların baş məşqçiləri ilə də müqavilələrə xitam verilib. Gənclərdən ibarət millimizin baş məşqçisi Rəşad Sadıqov, U-18 komandanın çalışdırıcısı Zaur Həşimov, 17 yaşınadək futbolçulardan ibarət seçməmizin baş məşqçisi Ramin Quliyev də istefaya göndəriliblər. U-19 millimizin baş məşqçisi Vüqar Məmməd vəzifəsində saxlanılıb. Bu, millimizin yaxın aylarda Avropa çempionatının elit-raundunda çıxışı ilə əlaqədardır.



İclasda klubların gəlir və xərcləri barədə də qərarların qəbul olunduğunu deyən E.Məmmədov AFFA Hakimlər və Hakim İnspektorlar Komitəsinin sədri Frits Ştuxlikin son üç aydakı fəaliyyətinin yekunlarına dair hesabatının dinlənildiyini də qeyd edib.

## "Neftçi" qış fasiləsinə çempion kimi yollanır

Futbol üzrə Topaz Premyer Liqasının 14-cü turun oyunları keçirilib. Tura "Sabah" - "Keşlə" oyunu ilə start verilib. "Əlincə Arena"da keçirilən matç 2:1 hesabı ilə qonaqların xeyrinə başa çatıb.

Qarşılaşmada hesabı "Keşlə" futbolçuları açıblar. Matçın 34-cü dəqiqəsində Sərdar Taşkın adını tabloya yazdırıb - 0:1. Fasilədən sonra Tərlan Əhmədovun yetirmələri hesab arasındakı fərqi iki topa çatdırıblar. 65-ci dəqiqədə Denis Silva cinah ötürməsini dəqiq tamamlayıb - 0:2. Qalan dəqiqələrdə isə "Sabah" klubunun gücü yalnız təsəlli qoluna çatıb. Debütantın heyətində 80-ci dəqiqədə Elşən Abdullayev fərqlənib - 1:2. Bu komandalar arasında ilk dövrədə keçirilmiş oyunda "Sabah" səfərdə minimal hesabla qalib gəlmişdi - 1:0.

Turun növbəti oyununda "Zirə" komandası "Dalğa Arena"da son çempion "Qarabağ"ı qəbul edib. Görüş ağdamlıların 6:0 hesablı qələbəsi ilə başa çatıb. Qonaqların heyətində Dani Kintana het-trik edib, Mahir Mədətov və Miçel isə hərəyə bir dəfə fərqləniblər. Digər qolu isə "Zirə"nin üzvü İlkin Qırtımov öz qapısına vurub.

Günün növbəti oyununda "Bayıl Arena"da "Səbail" komandası "Qəbələ" kollektivini sınağa çəkib. Gərgin idman mübarizəsi şəraitində keçən matçda tərəflər bir xalla kifayətləniblər - 0:0.

Turun son matçı olan "Neftçi" - "Sumqayıt" görüşündə də azarkeşlər qol görə bilməyiblər - 0:0.

Qeyd edək ki, qış fasiləsinə yollanan komandaların turnir cədvəlinə 33 xalla "Neftçi" başçılıq edir. Aktivlərində 30 xalı olan Ağdamın "Qarabağ" komandası ikinci, 19 xal toplayan "Səbail" isə üçüncü pillədə qərarlaşıb. Hərəyə 17 xal toplayan "Qəbələ" və "Sabah" dördüncü və beşinci yerləri bölüşürlər. Digər pillələrdə müvafiq olaraq, "Sumqayıt" (15), "Keşlə" (12) və "Zirə" (11) qərarlaşıblar.

## Fransada Avro-2020-yə hazırlıq üzrə işçi qrupunun beşinci görüşü keçirilib

Strasburqda Avropa Şurasının "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında" Konvensiyasının daimi komitəsinin nəzdində yaradılan Avro-2020-yə hazırlıq üzrə işçi qrupunun beşinci görüşü keçirilib.



AFFA-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri, Avro-2020-nin final mərhələsinin Bakıda keçiriləcək oyunları üzrə Əməliyyat Qrupunun layihə koordinatoru Könül Mehdiyeva görüşdə iştirak edib.

Xatırladaq ki, oktyabrın 13-16-da Avropa Şurasının daimi komitəsinin nümayəndələri Bakıya səfər edərək, Bakı Olimpiya Stadionuna baxış keçiriblər. Nümayəndələr aidiyyəti dövlət qurumlarının (Gənclər və İdman, Daxili İşlər, Fövqəladə Hallar, Səhiyyə nazirlikləri, Xüsusi Dövlət Mühafizə, Dövlət Təhlükəsizliyi xidmətləri) təmsilçiləri ilə görüşlərində Avro-2020-yə hazırlıq prosesi və digər əməliyyat prosesi barədə müzakirələr aparıblar.

## Paytaxt klubundan növbəti transfer

Bakının "Neftçi" futbol klubu daha bir transfer həyata keçirib.

Seneqallı futbolçu Mamadu Mbodj ilə 2,5 illik müqavilə bağlanıb. İyirmi beş yaşlı mərkəz müdafiəçisi "Neftçi"nin heyətində 3 nömrəli formanı geyinəcək. Sonuncu klubu "Jalgiris" (Litva, 2016-2018-ci illər) olan Mbodj "Dakar Sakre Kour" (Seneqal), "Srvena Zvezda" və "Napredak" (hər ikisi Serbiya) komandalarında da çıxış edib. "Jalgiris"lə Litva çempionatının, kubokunun və Superkubokunun qalibi olan futbolçu Seneqalın U-20 və U-23 milli komandalarının da şərəfini qoruyub.

Qeyd edək ki, bir neçə gün əvvəl Bakı təmsilçisi qvineyalı mərkəz yarımmüdafiəçisi Mamadu Kane ilə 3 illik müqavilə bağlamışdı.

## Futvolleyçilərimiz beynəlxalq turnirdə iştirak edəcəklər



Gələn il yanvarın 3-dən 6-dək Hollandiyanın Qroningen şəhərində futvolley üzrə beynəlxalq turnir keçiriləcək. Yarışda 16 ölkədən 22 komanda mübarizə aparacaq. Turnirdə yaxın keçmişdə dünyanın məşhur futbolçularından olan Frank De Bur da yarışacaq. Yarışda digər tanınmış futbolçuların iştirakı da istisna deyil.

Beynəlxalq turnirdə Azərbaycan komandası Feyar Hüseynov və Namiq İsgəndərovla təmsil olunacaq.

Qeyd edək ki, yarışdan əvvəl Avropa Futvolley Federasiyasının illik yekun iclası keçiriləcək. Tədbirdə Azərbaycan Futvolley Federasiyasının baş katibi Əfqan Həmzəyev də iştirak edəcək.

# Formula-1



## "Əvvəlcə Pit binasının tikintisinə başlanacaq"

"2019-cu ildə keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə hazırlıqlar plana uyğun gedir. Hazırda biletlərə endirim kampaniyası davam edir. Formula-1 azarkeşləri 20 faizlik endirimdən yararlana bilərlər. Azərbaycan vətəndaşları üçün daha 25 faiz endirim nəzərdə tutulub".

Bu sözləri "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai jurnalistlərə müsahibəsində deyib.

N.Arpadarai deyib ki, növbəti il aprelin sonunda bütün Formula-1 azarkeşlərinin gözü Bakıda olacaq. Yaxın zamanlarda tikinti işlərinə start veriləcək. Əvvəlcə Pit binasının tikintisinə başlanacaq. Sonrakı mərhələdə - yanvar ayında təhlükəsizlik baryerləri və tribunalar quraşdırılacaq.

"Könüllülərin qeydiyyatına yekun vurulub. Bir gündə 6 mindən artıq müraciət daxil oldu. Bu gözəl nəticədir. Ümumiyyətlə könüllülərlə iş proqramı artıq hazırdır. Bu il bir çox gənc həm işçi, həm də könüllü kimi bizimlə əməkdaşlıq edəcək", - deyə N.Arpadarai bildirib.

BŞH-nin rəsmisi deyib ki, Azərbaycan Qran-Prisində trasın konfiqurasiyası dəyişmir. Yarış hər il olduğu kimi, şəhərin mərkəzi küçələrində keçirilir. Əsas yeniliklərimiz əyləncə proqramı ilə bağlıdır. Ötən mövsüm konsert proqramları dəyişmişdi. Belə ki, yarışlardan sonra konsert proqramları təşkil olunurdu. Üç dünya ulduzunun konsertindən əlavə, DJ-lərin şousu da təşkil olunmuşdu. Bu il də əsas dəyişiklik konsert proqramları ilə bağlı olacaq.

Qeyd edək ki, Bakıda növbəti Formula-1 yarışı gələn il aprelin 26-28-də keçiriləcək.

* * *

Beynəlxalq Avtomobil Federasiyası (FIA) 2019-cu il Formula-1 mövsümünün təqvimini təsdiq edib. Ənənəvi olaraq, yeni mövsümün ilk Qran-Prisi Avstraliyada olacaq. Melburndakı avtodromda yürüş martın 17-də keçiriləcək. Həmişə olduğu kimi, yekun yürüş dekabrın 1-də Əbu-Dabinin Yas-Marina avtodromunda təşkil olunacaq. Azərbaycan Qran-Prisi isə aprelin 26-dan 28-dək Bakı trasında olacaq.

* * *

Formula-1 komandalarının rəhbərləri ilin ən yaxşı yürüşçüsünü seçiblər. İlin mükafatının sahibi 2018-ci il mövsümünün dünya çempionu Luis Hamilton olub. Bu titul onun karyerasında beşincidir.



Səsvermənin nəticələrinə görə, Hamilton 218 bal toplayıb, onun ən yaxın rəqibi Maks Ferstappen isə cəmi 139 balla kifayətlənib. Üçüncü yeri Sebastyan Fettel, dördüncü pilləni isə Fernando Alonso tutub. Onlardan başqa, ilk onluğa Daniel Rikkardo, Şarl Lekler, Kimi Raykkonen, Valtteri Bottas, Esteban Okon və Niko Hülkenberq daxil olublar.

Qeyd etmək lazımdır ki, səsvermədə doqquz komanda rəhbəri - Toto Volf, Kristian Xorner, Siril Abitebul, Günter Ştayner, Zak Braun, Otmar Zafnauer, Frederik Vassyor, Frans Tost və Kler Uilyams iştirak ediblər.



* * *

Rəsmi adını dəyişən Formula-1-in "Force İndia" komandası 2019-cu il mövsümündə bolidlərin çəhrayı rəngini qoruyub saxlayacaq.

Komandanın rəhbəri Otmar Zafnauer Əbu-Dabi Qran-Prisi günlərində komandanın rəmzi rəngini dəyişməyəcəyinə "99 faiz əmin olduğunu" bəyan edib.

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) bu yaxınlarda dərc edilmiş 2019-cu il mövsümü üçün rəsmi müraciət vərəqəsində təsdiq olunub ki, "Force İndia" gələn çempionatdan etibarən "Racing Point Formula-1" adlandırılacaq.

Adının dəyişməsinə baxmayaraq, "Force İndia" öz avtomobillərinin çəhrayı rəngini qoruyub saxlamaq niyyətindədir. Komandanın 2017-ci ildə Avstriyanın suyun təmizlənməsi və hazırlanması sistemləri ilə məşğul olan "BWT" şirkəti ilə imzaladığı iri sponsor razılaşmasından sonra bolidlər bu rənglə boyanıb.

Xatırladaq ki, 2019-cu ildə "Force İndia"nın pilotları Serxio Peres və Lens Stroll olacaqlar.

# Dünya idmanı



## Mark Zukerberq idmana da vaxt ayırır



Dünyanın ən ağıllı və zəngin insanlarından olan Mark Zukerberqin iş qrafiki nə qədər gərgin olsa da, idmana və ailəsinə vaxt ayıra bilir. Hələ tələbə olarkən qurduğu "facebook" sosial şəbəkəsi ilə yanaşı, ucuz qiymətə alaraq təkmilləşdirdiyi "instaqram" və "vatsapp" onu milyarder edib. Bir sözlə, yəhudi əsilli amerikalı Mark Zukerberq cəmi otuz yaşı olmasına baxmayaraq indiyədək böyük uğurlara imza atıb.

Belə gərgin bir vəziyyətdə işləyən insanın idmana, əyləncəyə vaxtı olmadığını düşünürsünüzsə, tamamilə yanılırsınız. Bu istedadlı və ağıllı insan ailəsinə, iki körpə qızına vaxt ayırmaqla yanaşı, idmanla da fəal məşğul olur. Qısaca, Mark Zukerberqin gün ərzindəki rejiminə nəzər salsanız, özünüzbunun şahidi olacaqsınız.



Mark da hər gün saat 8-də yuxudan oyanır. Bizim kimi o da vatsapp, facebook və instqaram səhifələrini gözdən keçirir. Bundan başqa ən azı həftədə üç dəfə idman zalına gedir. Yemək məsələsində də onun hər hansı bir problemi yoxdur. Gün ərzində nə istəsə, yeyir.

Zukerberq geyimə elə də çox vaxt ayırmır, çox rahat və sadə geyinir. Onun iş paltarı adi cins şalvar, idman krossovkaları və boz rəngli idman köynəyindən ibarətdir. Geyimi ilə bağlı jurnalistlərin suallarını isə belə cavablandırır: "Vaxtımı və beynimi lüzumsuz şeylərə həsr etmək istəmirəm. Vaxtımın çoxunu o fikrə yükləyirəm ki, cəmiyyətə necə xeyir verim və insanları bir-birinə necə yaxınlaşdırım".

Mark hər həftə 50-60 saat facebook-da işləyir. Bu işdə ona 12 nəfərdən ibarət komandası yardım edir. Gündə səkkiz saat yatan Zukerberq daim dil bacarıqları üzərində işləyir. O, hazırda şimali Çin dilini öyrənir. Mütaliəni həddindən çox sevən Mark Zukerberq 2015-ci ildən iki həftəyə bir kitab oxumağı qarşısına məqsəd qoyub.

Facebook kimi dünyanın ən böyük sosial şəbəkə şirkətini idarə edən Mark Zukerberq özünə və ailəsinə, idmana, dil öyrənməyə vaxt tapa bilirsə, bəzi insanların vaxtdan gileylənməyi tamamilə yersizdir.



## *Konor Makqreqor iki idman növü ilə eyni zamanda məşğul olacaq*

Məşhur idmançı Konor Makqreqor hazırda özünün viski markasının genişlənməsi və satışı ilə məşğuldur.

İrlandiyalı idmançı Konor fanatları ilə sosial şəbəkələrdə idman karyerası haqqında müzakirə aparıb. O deyib ki, 2019-cu ildə sahibi olduğu viskini ABŞ və Avstraliyaya ixrac edəcək. Eyni zamanda, 2019-cu ildə o, yenidən MMA-ya və boksa geri dönəcək. Bir sözlə idmançı iki idman növü ilə eyni zamanda məşğul olacağını diqqətə çatdırıb.

Qeyd edək ki, UFC versiyası (qaydasız döyüş) üzrə çempion adı uğrunda oktyabrın 7-də keçirilən döyüşdə Konor Makqreqor Həbib Nurməhəmmədova uduzub.

## "Qızıl top" onu həbsdən qurtardı



Luka Modriç "Qızıl top"a sahib oldu. Ancaq bu baş verməyə də bilərdi. Çünki bir müddət öncə xorvatiyalı futbolçu 6 illiyə həbs edilməliydi.

Kiçik Balkan ölkəsinin prezidenti Kolinda Qrabar-Kitaroviç son uğuruna görə onu ilk təbrik edənlərdən idi. Modriçin Zaqreb "Dinamo"sunun sabiq prezidenti Zdravko Mamiçin cinayət işi üzrə məhkəməyə yalan ifadələr verməsindən onun da xəbəri vardı. Təzliklə "Qızıl top"a iddialı olan 33 yaşlı futbolçuya qarşı irəli sürülən ittihamlar geri götürüldü. Məhkəmə buna heç bir izah vermədi. 2018-ci ilin iyun ayında Mamiç 6.5 illiyə dəmir barmaqlıqlar arxasına göndərildi. Modriç isə qızıl topa sahib oldu.

## Ağır xəstəliyə qalib gələn futbolçular

***İnsan həyatda başına gələcəklərdən xəbərsizdir və xəstəliklərdən, bədbəxt hadisələrdən sığorta olunmayıb. Tanınmış idmançılar var ki, başlarına gələn bədbəxt hadisələrə, ağır xəstəliklərə baxmayaraq ayaqda durmağı bacarıblar və hətta yenidən uğur qazanmağa müvəffəq olublar.***

***Sizə ağır xəstəliyə qalib gələrək karyerasını davam etdirən futbolçulardan danışacağıq.***

1. Karlos Rona -1998-ci il dünya çempionatının igid qapıçısı. Karlos xərçəng xəstəliyinə qalib gəlməyi və yenidən karyerasını davam etdirməyi bacardı.

2. Yeray Alvares - ötən mövsüm xərçəng diaqnozu qoyulan futbolçu bu mövsümün əvvəlində "Barselona" ilə oyunda yaşıl meydanlara geri qayıtdı. Müalicə vaxtı saçlarını kəsən futbolçuya dəstək olmaq üçün bütün komanda yoldaşları da saçlarını kəsdirdilər.

3. Erik Abidal - 2011-ci ilin mart ayında qaraciyər xərçəngi aşkarlanan Abidala yeni qara ciyər köçürüldükdən sonra karyerasını davam etdirdi. "Barselona"nın kapitanı Puyolun Çempionlar Liqası kubokunu onunla birlikdə qaldırması hələ də yaddaşlardadır.

4. Tiaqo Silva - 20 yaşı olanda vərəm diaqnozu qoyulub. Vəziyyətinin ağır olduğuna və həkimlərin qadağasına baxmayaraq Tiaqo Silva sevimli oyunundan ayrılmadı və dünya futbolunun ən yaxşı müdafiəçilərindən oldu.

6. Antonio Kassano - "Milan"da oynayarkən iflic diaqnozu qoyulan hücumçu beyin əməliyyatı keçirdi. 2011-ci ildə isə ürəyindən əməliyyat olunan Kassano 2012-ci il Avropa çempionatında İtaliya millisinin heyətində forma geydi.






7. İvan Klasniç - 2007-ci ildə "Verder"in formasını geyərkən böyrək çatışmazlığından əməliyyata girdi. Anasının böyrəyini alan Klasniçin bədəni bu böyrəyi qəbul etmədiyindən onun futbola dönüb-dönməyəcəyi sual altında idi. Lakin mart ayında ona atasının böyrəyi verildikdən sonra futbolçu noyabr ayında da yenidən yaşıl meydanlara qayıtdı.

8. Luboslav Penev - 1994-cü ildə xərçəng diaqnozu qoyulan Penevin xəstəliklə mübarizəsi 4 il davam etdi. Penev sağlamlığına qovuşduqdan sonra 1998-ci ildə Fransada keçirilən dünya çempionatında Bolqarıstan millisinin şərəfini qorudu.

9. Xose Fransisko Molina - "Atletiko"nun əfsanəvi qapıçılarından olan Molina xərçəngin onu dayandırmasına izn vermədi və keçirdiyi əməliyyatdan sadəcə bir neçə ay sonra ilk matçına çıxdı.

10. Serxio Araqoneses - O, 2005 və 2007-ci illərdə 2 dəfə xərçəngə qalib gəlib heç nəyin onu dayandıra bilməyəcəyini sübut etdi və 2014-cü ilədək futbolçu karyerasını davam etdirdi.

11. Mario Götze - 2017-ci ilin fevral ayında əzələ xəstəliyi ilə mübarizədən alman yarımmüdafiəçi qalib çıxdı və hazırda "Borussiya"nın şərəfini qoruyur.

12. Bafetimbi Qomis - ürəyində problem olan fransız hücumçu bir neçə dəfə oyun zamanı özündən gedib. Qomis ötən mövsüm "Qalatasaray"ın Kasımpaşa" ilə oynadığı matçda da huşunu itirib. Lakin həkimlərin müdaxiləsindən sonra təcrübəli forvard oyuna davam etmişdi.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlak Dövlət Reyestri Xidməti Bakı Şəhər Ərazi İdarəsi tərəfindən **Ağayev Rövşən Qiyas oğlunun** adına verilmiş Texniki Pasport (qeyri-yaşayış binası qaraj, Bakı şəhəri, Nəsimi rayonu, Tbilisi prospekti, 3007-ci məhəllə, ev 44 c-nin yan fasad hissəsində yerləşən qaraj inventar № 11/111) itdiyi üçün etibarsız sayılır.

Səməd İsmayılov, Tofiq Pənahov, Zakir Abdullayev, Ağalar Cavadov, Şahin Cavadov və Murad Fərzəliyev İsmət Seyfullayevə, anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54;
564-74-19